

Rusiyalı diplomat: "Cənubi Qafqazda sabitlik yalnız Azərbaycandan asılıdır"

4

# "Prezidentin müsahibəsi Azərbaycanın mövqeyini daha da möhkəmləndirdi"



3

Səs

№ 039 (6480) 2 mart 2022-ci il. Qiymətı 60 qəpik

## Ərzaq təhlükəsizliyi:

# Potensial və perspektivlər



15

# Azərbaycan

pandemiya ilə mübarizədə dünyaya öz töhfəsini verir




9

# Messi tənqidlərdən cana doyub...



PSJ-nin hücumçusu Lionel Messi Fransa mətbuatının tənqidlərindən narazıdır. Qol.az "Le Parisien"ə istinadən xəbər verir ki, son aylarda məşhur fransız nəşrləri müntəzəm olaraq argentinalı oyunçuya matçlardakı oyuna görə aşağı...

16

## Ermənistanda BÖHRAN: Dollar bahalaşır, rubl ucuzlaşır

Ermənistan banklarında rus rublu 3, dollar isə 494 erməni dramına satılır. SİA xəbər verir ki, bu barədə yazan rate.am saytının məlumatına görə, rublun minimal alışı 3 dram, satışı isə 5.09 dramdır. 1 ABŞ dollarının alışı 481, minimal satışı isə 489 dramdır. Dolların...



13



## Kimlərə jurnalist vəsiqəsi veriləcək

6

Xəbər verildiyi kimi, Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən...



## Bayramqabağı bazarlarda vəziyyət necədir?

5

Novruz bayramı - qədim türk xalqlarına məxsus bayramdır. Novruz bayramı Şimal yarımkürəsində astronomik yazın...

# Qlobal çağırışlara cavab verən gənclər nəsli yetişir

*Dövlət başçısının Sərəncamı ilə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına geniş imkanlar açılır*

Son illər Azərbaycanın iqtisadiyyatı kimi elmi, təhsili də geniş inteqrasiya proseslərinə cəlb olunub. Elm və təhsil sahələrində alim, müəllim və tələbələrin mübadiləsi geniş vüsət alıb. Müasir mərhələdə ölkəmizin iqtisadi qüdrəti gənclərimizin yeni bilik, informasiya və texnologiyaları qavraması qabiliyyəti ilə bilavasitə bağlıdır. Mövcud intellektual potensialın zənginləşdirilməsi ölkəmizdəki elm və təhsil ocaqları ilə bərabər, xarici ölkələrdə kadr hazırlığı məsələsini də aktuallaşdırır. Ölkə başçısının elm və təhsilin inkişafı ilə bağlı həyata keçirilən siyasəti nəticəsində reallaşan sərəncamlar, dövlət proqramları sırf dövlətçiliyimizə sadiq, vətənpərvər, yüksək intellekt sahibi, dünyagörüşlü gənclərin yetişməsinə gətirib çıxarır.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənələri Azərbaycan müstəqillik qazandıqdan sonra da uğurla davam etdirilmiş, bu dövr ərzində insan kapitalının inkişafı ilə bağlı dövlət strategiyaları və dövlət proqramları reallaşdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində gənclərin təhsil almalarına imkan yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş ”2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” gənclərin mükəmməl təhsilə yiyələnməsi istiqamətində görülən işlərin davamıdır.






Dövlət başçısının ”Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

imzaladığı Sərəncamı təqdirəlayiqdir. Dövlət Proqramı ”Azərbaycan Prezidentinin 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə hazırlanıb. Sənədin əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Dövlət Proqramı bu sahədə mövcud olan beynəlxalq təcrübə və meyillər nəzərə alınaraq hazırlanmışdır. Dövlət Proqramında bu sahədə müşahidə edilən qlobal trendlər və onların ölkə potensialına təsirləri qiymətləndirilmiş, mövcud vəziyyət təhlil edilmiş, uzunmüddətli dövr üçün strateji baxış formalaşdırılmış, hədəf göstəriciləri və prioritet istiqamətlər, gözlənilən təsirlər, icra mexanizmləri təsbit edilmişdir. Prioritet istiqamətlər üzrə ixtisas sahələrinin müəyyən edilməsi, prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının müəyyən edilməsi, xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı qaydaların müəyyən edilməsi, Dövlət Proqramı məzunlarının məşğulluğunun təmin edilməsi imkanlarının yaradılması və s. Dövlət Proqramının əsas istiqamətlərini təşkil edir. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

Bundan başqa, Dövlət Proqramında məzunlarının məşğulluğunun təmin edilməsi və karyera inkişafının stimullaşdırılması mexanizmlərinin yaradılması da nəzərdə tutulur.

Dövlət Proqramıda Ali təhsilin beynəlmiləlləşməsi məsələsi də yer alır. Müasir dünyada bilik iqtisadiyyatı və innovasiya cəmiyyəti, davamlı və hərtərəfli inkişafın təmin edilməsi bütün dövlətlərin qarşısında duran vacib vəzifələrdəndir. Hazırda bir çox dövlətlər tərəfindən xaricdə peşəkar kadr hazırlığının xüsusi dövlət proqramları ilə həyata keçirilməsi siyasəti dəstəklənir.

Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi tarixi qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı ən müasir texnologiyalar tətbiq edilməklə yaradılacaq infrastrukturun idarə edilməsi üçün yüksək bacarıqlara malik insan kapitalının formalaşdırılması zərurəti də xaricdə təhsil imkanlarından istifadəni aktuallaşdırır. Bununla yanaşı, postpandemiya və yeni strateji dövrün çağırışları, həmçinin inkişaf məqsədləri nəzərə alınmaqla, ölkənin rəqabət və inkişaf sahəsində sürətlə irəliləməsi üçün yüksək intellekt cəmiyyətin əsas güc mənbəyinə çevrilməli, yaradıcı və innovativ düşüncəli gənclərin iqtisadi fəallığı və idarəçilikdə rolu möhkəmlənməlidir. Bu məqsədlə Dövlət Proqramında qeyd olunduğu kimi, Azərbaycan gənclərinin ölkənin gələcək inkişaf prioritetləri çərçivəsində tələb olunan ixtisas istiqamətləri üzrə qabaqcıl xarici ali təhsil müəssisələrində magistratura və bakalavriat səviyyəsində təhsili üçün əlavə imkanların yaradılması davamlı olmalıdır.

Beləliklə, Dövlət Proqramının icrası ölkədə daha keyfiyyətli insan kapitalının formalaşmasına və Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqelərinin əhəmiyyətli şəkildə yaxşılaşmasına şərait yaradacaqdır. Eyni zamanda, əmək bazarında tələb olunan ixtisas sahələri üzrə peşəkar kadrlar hazırlanacaq, ölkəyə qayıdan məzunların ən müasir təcrübə və biliklərdən istifadə edərək göstərəcəkləri fəaliyyət ölkənin tərəqqisinə töhfə verəcəkdir.

***Zümrüd BAYRAMOVA***

Təhlil

# "Prezidentin müsahibəsi Azərbaycanın mövqeyini daha da möhkəmləndirdi"

"Prezident İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə çox ciddi mesajlar verdi. İstər iki ölkə arasında Müttəfiqlik Bəyannaməsinin imzalanması, Cənubi Qafqazda sülh və təhlükəsizlik mühitinin yaradılması, eləcə də erməni jurnalistlərin təxribatçı suallarının sərrast cavabları media nümayəndələri tərəfindən də maraqla qarşılandı. Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə Prezident İlham Əliyevin bütün sualları sərrast cavablandırması dövlətimizin başçısının yüksək dialoq məharəti və mədəniyyəti, müzakirə aparmaq bacarığı və





geniş məlumatlılığının daha bir göstəricisidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.

Onun sözlərinə görə, dövlət başçımıza ünvanlanan sualların xarakterindən aydın oldu ki, Rusiyada da müttəfiqlik bəyannaməsi strateji tərəfdaşların münasibətləri kimi dəyərləndirilir: "Rusiya KİV-ləri iki ölkə arasında münasibətlərin indiki formatını ali format kimi qəbul edir. Prezident İlham Əliyevin də söylədiyi kimi, dövlətlərarası münasibətlərdə bu, aysberqin zirvəsidir. Bu sənəd eyni zamanda Ermənistanın Rusiya ilə münasibətləri inhisara almaq, bu ölkənin imkanlarından öz maraqları üçün istifadə etmək, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında üzvlükdən yararlanmaq imkanlarını heçə endirir. Müsahibə zamanı ən çox diqqət çəkən məqamlardan biri erməni əsilli jurnalist Marqarita Simonyanın ermənilərin guya Azərbaycana girişinə qadağa qoyulması ilə bağlı qərəzli, təxribatçı mövqeyinin də cavabı verildi. "Bir neçə il bundan əvvəl Katalikos Qareginin səfəri olub, mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm - erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur" söyləyən dövlət başçımızın bu mövqeyi Rusiyadakı erməni lobbisinə ən tutarlı cavab idi. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Marqarita Simonyana cavab olaraq, 30 il ərzində erməni işğalının ağır nəticələrini nüfuzlu KİV-lər qarşısında xatırlatması isə Azərbaycanın informasiya müharibəsindəki mövqeyinə əlavə impuls verdi. Erməni əsilli jurnalist Marqarita Simonyan danılmaz faktlar, arqumentlərə əsaslanan tutarlı cavablar qarşısında aciz qaldı və bu, bütövlükdə Rusiyadakı erməni lobbisinin, ermənipərəstlərin susdurulması demək idi.

Bir sözlə, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərini son illər ölkəmizin xarici siyasətində ən önəmli hadisələrdən biri, dövlətimizin başçısının siyasi-diplomatik məharətinin nümayişi kimi dəyərləndirirlər".

***Arzu Qurbanzadə***

# Azərbaycan və Türkiyə arasında bir neçə saziş təsdiq olunub

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə fərman imzalayıb. Fərmanda deyilir:**

1. 2021-ci il dekabrın 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.



3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

Prezident İlham Əliyevin imzaladığı digər fərmanla isə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında balıqçılıq sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilib. Fərmana əsasən, 2021-ci il noyabrın 11-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında balıqçılıq sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

# "Rusiya kommunikasiyaların açılması üçün İrəvana təzyiqi artıracaq"

***Rusiyanın Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Caliber" analitik mərkəzinə Cənubi Qafqazdakı və postsovet məkanındakı vəziyyəti, həmçinin, gözlənilən prosesləri şərh edib. Şərhi oxucularımıza təqdim edirik.***



"Moskva Bəyannaməsi Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığı, enerji sektorunda və nüvə enerjisində qarşılıqlı əlaqəni nəzərdə tutur və bu, gələcəkdə də davam edəcək. Eyni zamanda, Rusiya ilə Azərbaycan arasında Bəyannamə Rusiyanın Ermənistanla Azərbaycan arasında seçim etməsi demək deyil. Moskva Bəyannaməsi ilk növbədə Cənubi Qafqazda əlaqələrin gücləndirilməsini, bütün tərəflərin maraqlarına uyğun olaraq regionun inteqrasiyasına və müasirləşməsinə imkan verəcək sabit institutların yaradılmasını nəzərdə tutur. Ona görə də Ermənistanla da inteqrasiya əlaqələri davam edəcək.

Digər tərəfdən, Rusiya güclü və iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycanı, ölkəmizin siyasi və beynəlxalq fəal müttəfiqinə çevirmək üçün bütün səylərini əsirgəməyəcək. Rusiya, həmçinin, Ermənistanın Cənubi Qafqaz regionunda nəqliyyat kommunikasiyalarını blokdan çıxarmağa məcbur edən məqamlarla bağlı Azərbaycanla Müttəfiq Əməkdaşlıq haqqında Bəyannamədə göstərilən öhdəliklərini yerinə yetirməsi üçün bütün səylərini göstərəcək. Cənubi Qafqazın vahid nəqliyyat regionuna çevrilməsi son dərəcə vacibdir. Bunun üçün Rusiya, bir tərəfdən, Ermənistandan regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı tələbləri yerinə yetirməsini qətiyyətlə tələb edəcək, digər tərəfdən öz yardımını və Rusiya şirkətlərinin logistik tikinti layihələrində iştirakını, maliyyə dəstəyini, və s. Bir sözlə, Rusiya regionda gedən proseslərə siyasi və iqtisadi təsir göstərəcək.

Bununla belə, mən hələlik Rusiya, Azərbaycan və Türkiyənin mərhələli hərbi-texnoloji yaxınlaşmasından danışmazdım. Daha doğrusu, söhbət Rusiya ilə Azərbaycanın yaxınlaşmasından gedir. Bakı-Ankara-Moskva üçbucağında hərbi-texniki əməkdaşlıqdan danışmaq hələ tezdir. İndi regionda təhlükəsizlik sisteminin yaradılması vacibdir. Təbii ki, həm Rusiya, həm Azərbaycan, həm də Türkiyə bunda maraqlıdır, çünki bizim ümumi vəzifəmiz logistik nəqliyyat-kommunikasiya əlaqəsi yaratmaq, Zəngəzur dəhlizinin normal fəaliyyətini təmin etmək, Rusiyanın Türkiyəyə və Aralıq dənizinə də daha rahat çıxış imkanlarını təmin etməkdir. Eyni zamanda Türkiyənin Rusiya bazarlarına, Xəzər dənizinə çıxışını. Hər üç ölkə regionun əlaqələrin artırılmasında maraqlıdır. Moskva və Şuşa bəyannamələrinin mahiyyəti də bundan ibarətdir",- deyə rusiyalı ekspert davam edib.

Dmitri Solonnikovun fikrincə, Rusiya-Türkiyə münasibətləri müəyyən dərəcədə geosiyasi vəziyyətdən asılı olacaq.

"Hazırda dünyada çətin geosiyasi proseslər gedir və Türkiyə Qərb blokunda müttəfiqləri qarşısında öz öhdəlikləri olan NATO-nun üzvüdür. Digər tərəfdən, Türkiyə mümkün olduğu qədər Rusiyaya da maksimum dəstək verməyə davam edir. Məsələn, Türkiyə Rusiyanın Avropa Şurasından çıxarılmasının əleyhinə səs verib, Ukraynadakı problemin sülh yolu ilə həlli üçün maksimum səy göstərir. Aydındır ki, Türkiyə Rusiyaya münasibətdə indiki şəraitdə mümkün qədər bir-birini tamamlayıcı şəkildə davranır. Türkiyə Qara dəniz regionunda sülh gündəminin formalaşmasında da fəal iştirak edən Ukraynada stabil hökumətin yaranmasında da maraqlıdır. Orada normal maliyyə əməkdaşlığı yaranan kimi Türkiyə bundan ancaq qazanacaq.

Əgər bütövlükdə Cənubi Qafqazda gedən proseslərdən danışsaq, o zaman gələcəkdə region beynəlxalq, siyasi, maliyyə və iqtisadi arxitekturanın bütün modelinin nə dərəcədə dağılacağından asılı olacaq. Birmənalı şəkildə deyə bilmərik ki, biz indi dünyanın parçalanmasının hansı səviyyəyə çatacağını təsəvvür edirik. Birincisi, bəzi Qərb ölkələri tərəfindən Rusiyaya qarşı sanksiyalar tətbiq olunur, Moskva da əks sanksiyalar tətbiq edir, ikincisi, bir sıra beynəlxalq təşkilatlar sıradan çıxacaq və biz bu prosesin harada dayanacağını bilmirik. Dünya onsuz da ən yaxşı vəziyyətdə deyildi, xüsusən də son iki ilin koronavirus məhdudiyyətləri fonunda, bir sıra maliyyəçilər Yamayka razılaşması ilə maliyyə institutlarını tənzimləyən müqavilələrinin köhnəldiyini və işləmədiyini söylədilər və onlara yalnız bir səbəb lazım idi- onları ləğv etmək. Dünya qeyri-sabitlik vəziyyətində idi və onu hazırkı işlək olmayan beynəlxalq sistemin dağıdılmasına yönəltmək üçün bir növ tətik lazım idi. İndi sual budur ki, Cənubi Qafqaza da təsir edəcək bu sökülmə hansı səviyyədə olacaq, orada yeni dövlətlərarası münasibətlər sistemi necə qurulacaq və buna uyğun olaraq regionun dünya ilə əlaqəsini tənzimləyən yeni qayda necə qurulacaq. Rusiya isə bu proseslərdə ən fəal iştirak edəcək. Ümid edək ki, bütün bunlar xalqlarımızın- Rusiya və Azərbaycanın xeyrinə olacaq",- deyə Dmitri Solonnikov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Rusiyalı diplomat: "Cənubi Qafqazda sabitlik yalnız Azərbaycandan asılıdır"

Məlum olduğu kimi, fevralın 22-də Vladimir Putin və İlham Əliyev Moskvada tarixi bir sənəd- Müttəfiqlərin Əməkdaşlığı haqqında Bəyannaməni imzaladılar, iki ölkə arasında münasibətləri yeni səviyyəyə qaldırdılar. Ardınca Rusiya Ukraynada hərbi əməliyyatlara başladı həm regionda həm də beynəlxalq vəziyyət gərginləşdi. Rusiya xarici işlər nazirinin keçmiş müavini Andrey Fedorov belə çətin geosiyasi vəziyyətdə müttəfiqlik əməkdaşlığı haqqında Bəyannamənin imzalanmasının həm Moskva, həm də Bakı üçün əhəmiyyətini, həmçinin Ukraynadakı vəziyyətin nəyə səbəb ola biləcəyi haqda fikirlərini "Moskva-Baku" platformasına şərh edib. Ekspertin fikrini oxucularımıza təqdim edirik.

- Düşünürəm ki, İlham Əliyev Rusiyanın Ukraynada keçirdiyi xüsusi əməliyyatı öz milli təhlükəsizliyini əsas götürərək həyata keçirdiyini anlayır. Üstəlik, Azərbaycan prezidentinin bu anlayışı Qarabağ münaqişəsi təcrübəsindən irəli gəlir, o zaman vəziyyət neçə il davam edib və o qədər çətinləşib ki, konkret addımlar atmaq lazım gəlib. Nə qədər ki, Qarabağ münaqişəsi var idi, Azərbaycan özünün tam təhlükəsizliyinə arxalana bilməzdi.

İlham Əliyev Rusiya ilə Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannaməni imzalamaqla əslində düzgün iş gördü. Ukrayna ətrafındakı vəziyyətdən asılı olmayaraq. Axı bu sənəd münasibətlərin keçid keyfiyyətindən bəhs edir. Və münasibətlərin bu keyfiyyəti indiki vəziyyətdən asılı deyil. İmzalananlar uzunmüddətli sənəddir, dünyada mövcud vəziyyətə baxmayaraq, təmasların uzunmüddətli baxışıdır. Və münasibətlərin səviyyəsinin yüksəldilməsi həm Rusiya, həm də Azərbaycan üçün prinsipial əhəmiyyət kəsb edirdi. Son illər xüsusilə göstərdi ki, Moskva ilə Bakının münasibətləri, liderlər arasındakı



münasibətlər etimad münasibətidir, bu, birgə hərəkət etməyə, bütün məsələlərdə irəli getməyə hazır olmaqdır. İndi biz Azərbaycan prezidentindən Rusiyanın müxtəlif sahələrdə fəaliyyətini ən yüksək qiymətləndirən, o cümlədən Rusiyanın KTMT-də xüsusi rolunun tanınması ilə bağlı çoxlu müsbət bəyanatlar eşitmişik.

Yeri gəlmişkən, Bakı Rusiya üçün müttəfiq statusu aldıqdan sonra Azərbaycanla Ermənistanı müqayisə etməyi məqbul hesab etmirəm. Yenə də Azərbaycan və Ermənistan fərqli müstəvilərdədir. Ermənistan KTMT və Aİİnin üzvüdür. Azərbaycan isə həm Rusiya ilə, həm də başqa dövlətlərlə əlaqələri olan müstəqil dövlət kimi inkişaf edir. Rusiya üçün isə bu, tarazlıq məsələsi deyil, Moskva üçün Cənubi Qafqazda sabitliyin prinsipial əhəmiyyət kəsb etməsindən gedir. Bu gün Cənubi Qafqazda sabitlik, yalnız Azərbaycandan asılıdır. Və başqa heç kimdən. Azərbaycanın statusu getdikcə artır. Onun Rusiya ilə imzaladığı bəyannamə isə yalnız bunu təsdiq edir.

Yerevanın bu bəyannaməyə müsbət reaksiya verdiyini, bunun regionda sülhün və əməkdaşlığın bərqərar olmasına töhfə verəcəyini vurğuladığını söyləmək yerinə düşər. Ermənistan bu gün həyəcan rejimindədir. Və bu rejim yalnız sakitlik tələb edir. Ermənistan üçün isə sülhü ancaq Rusiya və Azərbaycan təmin edə bilər.

Ukrayna ətrafında vəziyyətə gəlincə. Burada, prinsipcə, Türkiyə və Çin, İran baş verənlərə az-çox təmkinli reaksiya verir. Türkiyə hələ də bir çox sahələrdə Rusiya ilə əməkdaşlıqdan asılıdır. Həm Suriyada və iqtisadiyyat baxımından. Siyasi müstəvidə Rusiyanı dəstəkləyəcək, amma yenə də öz yolu ilə gedəcək. O, BMT Təhlükəsizlik Şurasında Rusiyanı pisləyən qətnaməyə qarşı çıxacaq, amma çətin iqtisadi vəziyyət yaranarsa, bizə kömək edə bilməyəcək.

Amma açığını desəm, Rusiya üçün çətin vəziyyət yarana bilər. Qərbin bizə qarşı hansı sanksiyaları tətbiq edəcəyini anladığımız üçün böyük ehtimalla sabah vəziyyət bəlli olacaq. Rusiya nə etdiyini bilirdi, baxmayaraq ki, bir çoxları Qərbin bizim hərəkətlərimizi udacağını və özünü bəzi yumşaq sanksiyalarla məhdudlaşdıracağını düşünürdü. Təəssüf ki, bu belə deyil. Biz tamamilə konsolidasiya edilmiş Qərb görürük. Qərb indi faktiki olaraq Ukraynaya həm hərbi, həm də maliyyə cəhətdən çox kömək edir. Çoxlarında bütün bunların bir gündə bitəcəyi illüziyası var. Bu doğru deyil. Ukrayna Yuqoslaviya və ya Suriya deyil. 40 milyon əhalisi olan bir ölkədir və təəssüf ki, bu əhalinin əhəmiyyətli bir hissəsi anti-Rusiyadır. Ona görə də tankların üzərində hansısa rənglərin olmasını gözləməyə ehtiyac yoxdur... Bu, çox ciddi məsələdir və bu, bütün postsovet məkanının məsələsidir. Rusiya ilə Ukrayna arasındakı münaqişə bütün postsovet məkanı üçün sınaqdır. İndi vəzifələrdən biri bütün bu mənfi nəticələri minimuma endirməkdir. Qərblə sərt qarşıdurmaya getmədən və onu Ukraynaya təsir göstərməyə və irəli sürdüyümüz şərtləri qəbul etməyə inandırmağa çalışmaqla onları minimuma endirmək olar, əks halda vəziyyət, təəssüf ki, böyük insan itkisinə səbəb ola bilər.

***Tərcümə - Elçin Bayramlı***

## Kirayə evin qiymətləri niyə bahalaşıb?

"Karantin qaydalarının yumşalması bütövlükdə əmlak, o cümlədən, kirayə bazarına da təsir etməkdədir. Xüsusilə, real sektordakı yenidən açılmalar, karantinin yumşalması paytaxtda mənzillərə tələbin artmasına gətirib çıxartdı. Eyni zamanda, universitetlərdə ənənəvi təhsilin bərpası, onlayn təhsilə keçilməsi ilə bağlı gözləntilərin olmasına baxmayaraq



hələ də davam etməsi kirayə bazarına təsir göstərib". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-deputat Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, kirayə bazarında qiymət artımları müşahidə olunmaqdadır: "Gələcəkdə də epidemioloji vəziyyətdən asılı olaraq karantin qaydalarının yumşaldılması gözlənilir. Bu baxımdan kirayə bazarında qiymətlərin müəyyən müddətdən sonra, xüsusilə də yay aylarına doğru stabilləşəcəyini proqnozlaşdırırıq".

Deputat sözlərinə belə davam edib: "Karantin qaydaları, pandemiya ilə bağlı risklər tamamilə aradan qalxarsa yenidən avqust və sentyabr aylarında kirayə mənzillərin qiymətlərinin artacağı gözləniləndir. Mütəmadi olaraq qiymətləndirmə ondan ibarətdir ki, pandemiya növbəti dövrdə kirayə bazarındakı mənzillərin qiymətinə birbaşa təsir göstərən faktorlardan olacaq. Karantin qaydalarının yumşalması real sektorda aktivliyin daha da güclənməsinə və bütövlükdə əmlaka tələbin artmasına gətirib çıxaracaq".

***Ayşən Vəli***

## Britaniyalı parlamentarilər: "Xocalı soyqırımı Azərbaycan tarixinin ən faciəvi səhifələrindən biridir"



Birləşmiş Krallıq parlamentinin İcmalar və Lordlar palatalarından olan 12 üzvü Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə birgə bəyanatla çıxış ediblər. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, indiyədək Birləşmiş Krallıq parlamentarilərinin Xocalı faciəsinə dair qəbul etdikləri ilk birgə təşəbbüs olan bu bəyanatda qətliamın 30-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına, yaxınlarını itirən həmvətənlərimizə başsağlığı verilib, xalqımıza həmrəylik ifadə edilib.

Bəyanatda müharibənin gedişində ən irimiqyaslı mülki itkilərlə səciyyələnmiş Xocalı qətliamı parlamentarilər tərəfindən Azərbaycanın yaxın tarixinin ən faciəvi səhifələrindən biri kimi xarakterizə edilib. Həmçinin Avropa İnsan Haqları Məhkəməsinin Xocalıda baş verənləri müharibə cinayəti və bəşəriyyətə qarşı cinayət kimi xarakterizə edən 2010-cu il 22 aprel tarixli qərarı xatırlanaraq, gələcəkdə belə faciələrin qarşısını almaq məqsədilə beynəlxalq humanitar hüququn möhkəmləndirilməsinin zəruriliyi vurğulanıb.

Parlamentarilər münaqişənin başa çatmasını alqışlayaraq, aparılan danışıqların Azərbaycan ilə Ermənistan arasında münasibətlərin tam normallaşmasına gətirib çıxaracağına ümidvar olduqlarını qeyd ediblər.

Bəyanatda, həmçinin postmünaqişə mərhələsində ərazilərin minalardan təmizlənməsi, kommunikasiya-nəqliyyat əlaqələrinin bərpası, sərhədlərin delimitasiyası və demarkasiyası kimi çağırışların mövcudluğu qeyd olunub, bu məsələlərin həlli, xüsusilə də ərazilərin minalardan təmizlənməsi istiqamətində Birləşmiş Krallıq hökumətinə çağırış edilib.

## Yolların salınması son dərəcədə mühüm əhəmiyyətə malikdir

**"Goranboy rayonunun Dəliməmmədli-Düzqışlaq-Bağçakürd-Dəyirmanlar-Azad-Nizami avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Bu yolun salınması ilk növbədə orada yaşayan insanların gediş-gəlişi üçün, bilavasitə gündəlik hərəkətlərinin rahat şəkildə həyata keçirilməsinə xidmət edəcək". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eldəniz Əmirov deyib.**

Onun sözlərinə görə, ikinci bir məsələ bu, həmin regionda sahibkarlığın inkişafı üçün öz töhfəsini verəcək: "Daha dəqiqi loqistik fəaliyyətin həyata keçirilməsində öz müsbət təsirini göstərəcək. Eyni zamanda bu infrastrukturun yaradılması bölgədə yeni təsərrüfat subyektlərinin də yaradılmasına müsbət mənada öz töhfəsini vermiş olur. Bu baxımdan region üçün yolların salınması son dərəcədə mühüm əhəmiyyətə malikdir".

***Arzu Qurbanzadə***

# Sayğacların oxunmasında süni intellektdən necə istifadə ediləcək?

***Azərbaycanda qaz sayğaclarının göstəricilərinin oxunmasında süni intellekt həllindən istifadə olunacağı bildirilib. Bəs, yeni qaydalar necə tətbiq olunacaq?***



Mövzu ilə bağlı SİA "Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyevin fikirlərini öyrənib: "Sayğacların oxunmasında süni intellektdən istifadə olunması məsələsi barəsində hazırda müzakirələr gedir. Yəqin ki müəyyən müddət ərzində bu reallaşacaq. Sayğacların üzərinə xüsusi cihazlar quraşdırılacaq. Həmin cihazların üzərinə isə şəffaf qutular qoyulacaq. Çünki kimsə həmin cihaza müdaxilə etməsin. Həmin cihaz vasitəsilə əraziyə uyğun olaraq mərkəzə ötürüləcək. Mərkəzləşdirilmiş qaydada sayğaca nəzarət olunacaq. İndiyə qədər Azərbaycanda ağıllı sayğac olmayıb. Smart kart tipli sayğaclar ağıllı sayğac hesab olunur. Lakin bu düzgün deyil. Sayğacların oxunmasında süni intellektdən istifadəsi ilə mexaniki tipli sayğaclar ağıllı sayğaclara çevriləcək, hər ilin əvvəlində limitin yenilənməsi avtomotik olaraq baş verəcək".

***Arzu Qurbanzadə***

**Novruz bayramı - qədim türk xalqlarına məxsus bayramdır. Novruz bayramı Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə ilə gündüzün bərabərliyi günündə (martın 20-si və ya 21-dən başlayıb 25-nə qədər) keçirilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. 2009-cu il sentyabrın 30-da Novruz**

# Bayramqabağı bazarlarda vəziyyət necədir?












REPORTAJ

**bayramı YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib.**

Artıq 2-ci çərşənbəni də qeyd etdik. Demək novruz bayramına bir qədər də yaxınlaşdıq.

Məlum məsələdir ki, hər il bayramqabağı hər kəs bayram bazarlığı edir. Lakin adətən bazarlarda bu zaman qiymətlərdə artım müşahidə olunur. Biz də SİA olaraq bu il bazarda vəziyyətin necə olduğunu araşdırmaq üçün Yaşıl Bazara yollandıq.

**Satıcı Emil Hüseynov:**

"Hazırda dana ətinin qiyməti 11 manat, quzu ətinin qiyməti isə 15 manat təşkil edir. Heç bir qiymət artımı yoxdur. Vətəndaşların alıcılıq səviyyəsi isə çox aşağıdır.

Alanda isə qiymətinin daha ucuz olmasına görə toyuq ətinə üstünlük verilir. Bayramla əlaqədar olaraq isə bahalaşma hələ olmayıb, amma gözlənələndir".

**Satıcı Ceyhun Orucov:** "Bayramla əlaqədar olaraq nəinki artım, əksinə ucuzlaşma var. Məsələn bir müddət əvvəl 16 manata satdığımız fındıq indi 13 manatadır.

Bayram bazarlığına isə az da olsa başlayanlar var. Ən çox isə innab, iydə alınır. Ən bahalı çərəz isə Ordubad qozudur. Kilosu 35 manatdır".

**Satıcı Emin Qüdrətli:**

"Tam şəkildə hələ hər kəs bayram bazarlığına başlamayıb. Alış səviyyəsi isə aşağı olduğuna görə təbii ki, qiymətlərdə də artım yoxdur.

Ən bahalı məhsullar isə xaricdən gələnlərdir. Hər məhsulun ucuzu da bahalısı da olur. Məsələn kişmişin 5 manata olanı da, 30 manata olanı da var. Yəni hər büdcəyə uyğun məhsul var".

**Satıcı Rəhim Qurbanlı:**

"Ötən illərdə olan satışları nəzərə aldıqda bu il çox zəifdir. Məsələn sabah artıq çərşənbədir, amma bazar demək olar ki, boşdur, heç kim yoxdur.

Düzdür elə müştərilərimiz də var ki, gəlib hər şeyi birdəfəlik alırlar. Bundan əlavə düşünürəm ki, bu zəifliyin pandemiya ilə əlaqəsi böyükdür. Çünki son günlərdə uzun müddətdir görmədiyimiz müştərilərimiz mağazaya yaxınlaşdıqda ölümdən döndüklərini bildiriblər".

**Satıcı Sənan Sadıqov:**

"Bizdəki bəzi məhsullar mövsimi olduğu üçün tələbat çoxdur. Xüsusilə də bayramqabağı daha çox alınır. Qiymətlərdə artım olması isə gözlənilmir.

Amma hər bir halda alış səviyyəsi çox aşağıdır. Ən bahalı məhsul isə çaşır turşusudur. Qiyməti 30 manatdır".

**Satıcı Nadir Qocayev:**

"Alış səviyyəsi çox aşağıdır.

Ötən illərlə müqayisədə də demək olar ki, hələ bayram bazarlığına gələn yoxdur. Bayramla əlaqədar da heç bir artım yoxdur, amma gözlənilir".

**Satıcı Aidə Əziz qızı:**

"Meyvə-tərəvəzin qiymətində heç bir dəyişiklik yoxdur.

Bir ay əvvəl necə idisə, indi də elədir. Ən bahalı isə pomidor, xiyardır. Təxmini 3-4 manat arasında dəyişir. Meyvələr isə ucuzdur. Artım isə gözlənilmir. Çünki alış səviyyəsi də çox aşağıdır".

**Satıcı İlham Novruzov:**

"Hazırda əvvəlki illərlə nisbətdə balığın istehsalı olduqca artıb. Dəniz balıqlarının ovlanması qadağan olunduqdan sonra kənd təsərrüfatında balıqların istehsal olunmasının səviyyəsi xeyli yüksəlib. Xarici istehsal içərisində isə Türkiyə və Rusiyadan gələn balıqların satışı da daha çoxdur.

Bundan əlavə balıqların çeşidləri də artıb. Əvvəllər 3-4 növ balıq sata bilirdiksə, hazırda bu say 30-40 növ balıq arasında dəyişir. Balıq istehsalının çox olması bazarda rəqabəti artırdığı qədər qiymətləri də aşağı salıb. Bayramqabağı da balıq alanlar çoxluq təşkil edir. Xüsusilə də bayram günü ləvəngi bişirə biləcəkləri balqılara insanlar daha çox üstünlük verirlər".

Bayramla bağlı bütün bazarı səmənilər bəzəyirdi. Biz də səmənilərin qiymətini öyrənməyə çalışdıq. Bu zaman isə ən bahalı səməninin 50 manat, ən ucuzunun isə 1 manat olduğuna şahid olduq. Eyni zamanda məsələ ilə bağlı şəhər sakinlərinin də fikirlərini öyrənməyə çalışdıq.

**Şəhər sakini Nailə Süleymanova:**

"Bayram bazarlığı hələ tam eləməmişik. Ama çərşənbə üçün məhsullar alanda elə də bahalaşma yoxdur. Rast gəlməmişəm, hətta deyərdim normal qiymətlərdir".

**Şəhər sakini Arzu Osmanlı:**

"Novruz bayramı qabağı həmişə ləpə bahalaşır. Bu il hələ baxa bilməmişəm qiymətlərə. Amma hər il olduğu kimi yəqin bayrama yaxın yenə bahalaşacaq. Ən yaxşısı tez bir zamanda almaqdır ki, bayram qabağı bahalaşmaya düşməyəsən".

**Şəhər sakini Orxan Musayev:**

"Bayrama özəl yox, amma evə ümumi bazarlıq edəndə bahalaşma yoxdur. Amma bayrama yaxın artıq deyə bilmərəm necə olacaq. Amma yəqinki olacaq, ən çox da meyvələrdə və ləpədə olur bahalaşma".

**Şəhər sakini Xəyalə Muradova:**

"Çərşənbə ilə əlaqədar bazarlıq edəndə hər şeyin normal qiymətə olduğunun şahidi oldum. Amma yəqin ki, bir həftə sonra, artıq bayrama az qalmış bahalaşmanın şahidi olacağıq".

***Səbinə Hüseynli***

# Kimlərə jurnalist vəsiqəsi veriləcək

***Xəbər verildiyi kimi Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi veriləcək. Layihəyə əsasən, bu, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən xarici jurnalistlərə şamil edilmir. Xarici jurnalistlər Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərmək üçün əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etməlidirlər. Onlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən razılıq verildikdən sonra fəaliyyət göstərə bilərlər.***



**MEDİA RƏSMİLƏRİ AÇIQLADI**

SİA mövzu ilə bağlı Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyevanın fikirlərini öyrənib: "Media Reyestrindən qeydiyyatdan keçən media nümayəndələrinə jurnalist vəsiqəsi veriləcək. Media subyektlərinə isə şəhadətnamə veriləcək. Amma kimlər ki, Media Reyestrində yoxdur, həmin şəxslərə çalışdıqları media subyektində vəsiqə verilibsə, həmin vəsiqə ilə öz fəaliyyətini davam etdirir. Vəsiqənin tam forması ilə bağlı detallar açıqlanacaq. Tam dəqiqləşdikdən sonra məlumat veriləcək".



Mövzu ilə bağlı Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli bildirib ki, Nazirlər Kabinetinin sərəncamı "Media haqqında" yeni qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli fərmanının icrasının təmin edilməsi məqsədilə verilib. Sərəncama əsasən, Medianın İnkişafı Agentliyi bir sıra digər qurumlarla birgə (Ədliyyə Nazirliyi, Audiovizual Şura, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) jurnalist vəsiqəsinin formasını hazırlamalıdır. Həmçinin, vəsiqənin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləğini müəyyənləşdirməli, həmin vəsaitdən istifadə qaydalarını dair təkliflər verməlidir. Paralel olaraq, Agentlik Media reyestrinin aparılması qaydaları barədə təklifləri hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidir.

Qeyd etmək zəruridir ki, Azərbaycanda Media reystrinin aparılması, vahid uçot sisteminin yaradılması, həmçinin reystrdən keçmiş jurnalistlərə vəsiqələrin verilməsi praktikası ilk dəfə tətbiq edilir. Bu, "Media haqqında" qanunun ölkəmizə gətirdiyi yeniliklərdən biridir və mühüm əhəmiyyət daşıyır. Qanunun 70-ci maddəsində göstərilir ki, Media Reyestrinə daxil edilmiş jurnalistlərə jurnalist vəsiqəsi verilir. 71-ci maddə isə " Jurnalist vəsiqəsi" almış şəxslərin imtiyazlarını ehtiva edir. Göstərilir ki, vəsiqə almış şəxslər jurnalist fəaliyyətinin həyata keçirilməsi ilə bağlı dövlət və bələdiyyə mülkiyyətində olan muzeylərə, qalereyalara, habelə mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil ola bilərlər. O cümlədən, təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirak etmək, layihələrə qatılmaq, maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə edə bilirlər. İlkin şərtlərdən belə məlum olur ki, güzəştli ipoteka da məhz Media reystrinə düşmüş, jurnalist vəsiqəsi almış şəxslərə şamil olunacaq. Bütün bunlar mediada peşəkarlığın stimullaşdırılması, təşviq edilməsi üçün çox zəruri addımlardır".



***Arzu Qurbanzadə***

# "Bu, Prezidentin informasiya vasitələrinə verdiyi böyük dəyərdən irəli gəlir"



***""Cənab Prezident İlham Əliyevin Rusiyaya səfəri zamanı Kütləvi İnformasiya Vasitələrinin baş redaktoru ilə görüşü xüsusi əhəmiyyət daşıyır. Bu, cənab Prezidentin informasiya vasitələrinə verdiyi böyük dəyərdən irəli gəlir". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, İlham Əliyevin onlarla açıq şəkildə Azərbaycan-Rusiya münasibətləri barəsində fikir mübadiləsi etməsi radikal Rusiya mətbuat orqanlarını da təəccübləndirib: "Cənab Prezident həm ikitərəfli münasibətlər, həm də baş redaktoru maraqlandıran xüsusi məsələlər barədə kifayət qədər açıq danışıb. Onun Rusiya ilə münasibətlərə xüsusi diqqət etməsi hər iki tərəfin milli maraqlarına cavab verir".***

Deputat sözlərinə belə davam edib: "Rusiya öz sərhədlərində onunla dost münasibətləri bəsləyən, ikitərəfli əlaqələrə xüsusi əhəmiyyət verən ölkələrin olmasına üstünlük verir. Azərbaycan da bu ölkələr siyahısına daxildir. Rusiya ilə münasibətlərin yaxşı olması, Azərbaycanın şimal qonşusu ilə ümumi maraqlar uğrunda birgə mübarizə aparması,bir-birinin dövlət müstəqilliyinə hörmətlə yanaşması vacib məsələlərdən biridir.

30 illik müstəqillik dövründə bu iki qonşu dövlət arasında 200-dən çox sənəd imzalanıb. Azərbaycan və Rusiya arasında 40 bənddən ibarət müttəfiqlik barədə bəyannamənin imzalanması əməkdaşlığın daha da dərinləşəcəyini, tərəflərin bu münasibətlərin bütün aspektlərini nəzərdən keçirəcəyini göstərir. Bununla da Azərbaycan bir daha bütün ölkələrlə ikitərəfli münasibətlərin qurulmasında maraqlı olduğunu sübut etmiş oldu".

***Ayşən***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# Putin Kiyev bataqlığında: Ya imperator ol, ya da yox ol...

**Dünya böyük fəlakətlə üz-üzədir. Ukrayna torpaqlarında qanlı tarix yazılır. Bombardmanlarda öldürülən uşaqlar, bu şaxtada canını qurtarmaq üçün nazik paltarlarda digər ölkələrə qaçan zavallı insanlar...**

Belə görünür ki, üçüncü dünya müharibəsi qaçılmaz olacaq. Çünki bütün dünyanın ukraynalıların rus ordusuna qarşı güclü müqavimətini heyranlıqla izlədiyi bir vaxtda, Kiyevi 6 gündür zəbt edə bilməyən və bundan qəzəblənən Kreml, artıq nüvə silahlarını işlək vəziyyətə gətirib. Vladimir Putin bu barədə göstəriş də verib. Hadisələr elə sürətlə dəyişir ki, nəyi necə yazasan mümkünsüz hala çevrilir. Indi yazdığın cəmi 5-10 dəqiqə sonra köhnəlir gedir. Bu gündən sabaha nəyin necə olacağı belə məlum deyil. Nə baş verir? V.Putin çoxlarının gözləmədiyi addımı atdı. Kremlin iddialı rəhbəri yeni tarix yazmağa qərar verdi 24 fevral axşamı. Böyük və iddalı Rusiya yaratmaq üçün rus ordusunu Kiyev üzərinə yürüşə göndərən V.Putin, çox təhlükəli və qanlı ssenari reallaşdırır Ukraynada. Bu gün Ukrayna, sözün əsl mənasında, V.Putin və Rusiya üçün əsl tarix bataqlığıdır. V.Putin bu qanlı riskə necə getdi, bu boyda ölkənin rəhbəri nəyi düşünüb, nəyi hesaba almadı-hamısı müəmmadır.

Həqiqət olan odur ki, rus əsgəri Ukrayna torpaqlarında öldürür, öldürülür, qan töküb və qanı axıdılır, vəssalam. Səbəb də odur ki, Moskva Kiyevdəki mərkəzi hakimiyyəti dəyişmək istəyir, NATO və ABŞ-ın oradakı dayaqlarını məhv etmək istəyir, üstəlik, bütün Ukraynanı yenidən öz caynağına keçirməkdə israrlıdır. V.Putin deyir ki, Moskva rəsmi Kiyevin bu tərkibdə qalmasına, Qərbə və ABŞ-a yaxın olmasına səbr etməyəcək. Soruşan lazımdır ki, başı araq içməyə qarışmış Boris Yeltsin, elə Vladimir Vladimiroviçin özü nədən Ukraynanı əldən qaçırıb qərbə "hədiyyə" etdilər? Moskva keçmiş sovet respublikalarını əldə saxlamaq, onları könüllü olaraq ətrafında toplamaq üçün heç bir iş görmədi. Bildiyi "dil", ancaq HƏDƏ idi, başqa heç nə!

Heç etmədi də. Neçə gündür Ukrayna torpaqlarında qanlı döyüşlər gedir. Hətta ikinci dünya müharibəsində qəhrəman şəhər adlandırılmış Kiyev, rus ordusuna qarşı canlı sipər kimi durub. Ukraynada əhaliyə silah və minlərlə güllə paylanıldı, hər kəs silahlanıb şəhərə girməyə çalışan rus ordusuna qarşı hazır vəziyyətdə durub. Bəzi yerlərdə ruslara kabus da yaşadırlar. Ən dəhşətlisi isə rus ordusu Kiyevi tutandan sonra olacaq. Hitlerə qarşı partizan müharibəsində böyük təcrübəsi olan ukraynalılar, bu dəfə ruslara qarşı yuxuya getməyəcəklər. Bəli, Ukrayna torpaqlarında qan su yerinə axır. Amma rus ordusu artıq beşinci gündür ki, istəyinə çata bilmir. Ukrayna xalqı silaha sarılıb hər yerdə rus əsgərlərini qana boyayır. Bu direniş Kreml rəhbərini möhkəm qəzəbləndirib. Elə o qəzəbdir ki, V.Putin nüvə silahını işə salmaq və Rusiya xüsusi təyinatlılarına "hazır ol" əmri verdi. Moskva artıq başını tamam itirib. Bütün Ukrayna dünəndən hara gəldi bombalanır. Bu addım nə qədər dəhşətli səhvdir, yaxud V.Putin nə qədər uzaqgörəndir, onu tarix göstərəcək.

Amma Ukraynanı rusların üstünə qızışdırıb sonra onu V.Putinlə üzüzə qoyan qərb də, nəhayət, iqtisadi sanksiyalara əl atıb. Ona görə əlayağa düşüb ki, artıq müharibə Ukrayna sərhədlərini aşaraq bütün Avropaya yayılmaq riski altındadır. Ona görə ki, V.Putin artıq bütün Avropanı hədələyir. Qərb ona görə rəsmi Kiyevi var gücü ilə müdafiə etməyə başladı ki, bütün Ukrayna ruslara qarşı canlı sipərə çevrildi, V.Putinin gözləmədiyi müqavimət yaratdı və ən əsası da qərb liderləri ayıldılar ki, V.Putin Ukrayna ilə kifayətlənməyəcək. Ukrayna tutulsa, növbə Polşa, Rumıniya, Moldova və Baltik ölkələrinindir. Moskva bu iddasını heç gizlətmir də. Rusiya XİN nümayəndəsi Mariya Zaxarova deyir ki, əgər Finlandiya və Norveç NATO-ya üzvlük üçün müraciət etsələr, bunun qarşılığı kəskin cavablandırılacaq. Bu da sənə Putin planı!

Rusiya üçün ən önəmli zərbə iqtisadi sanksiyalar olacaq. Özü də rus milyonçuların bir gecədə milyardlarla, trilyonlarla dollar itirdikləri sanksiyalar işə salınıb. Və bu iş cəmi bir ay davam etsə, o zaman Moskvanı çox ağır günlər də gözləyəcək. Xüsusilə, varlı rusların müflis olması, iqtisadi sanksiyalar sadə rusun bərbad olan həyatını daha da altüst etsə, o zaman V.Putinin daxildən "vurulması" qaçılmaz olacaq. V.Putin nə qədər hesablasa belə, hesablamadığı məqamlar mütləq ortaya çıxacaq. Əgər Qərbdəkilər bilə-bilə balacaboy KQB generalını Ukraynadakı bataqlığına çəkib buradaca V.Putinin siyasi məhvinə qərar veriblərsə, o zaman daha dəhşətli mənzərə ortaya çıxacaq: Qərbin bu oyununda xarabalığa qalan Ukrayna, taqətdən salınıb çökəldilən Rusiya, bütün bunlara görə Rusiya və Ukraynadan az zərər görməyəcək keçmiş sovet respublikaları. Dünya üçün fəlakət qapıdadır...

# Od çərşənbəsinin adı dəyişdirilir?






**Hər bir xalqın öz milli bayramı var. Azərbaycanın milli bayramı isə Novruzdur. Bu bayramın kökü isə çox qədimlərə söykənir. Həmçinin, Novruz bayramının özünəməxsus adət-ənənələri olur.**

Bayramın gəlişinə daha çox uşaqlar sevinir. Çünki bayramı ən çox uşaqlar sevir. Uşaq gülüşü isə həyatda hər şeyə dəyər. Həyatda uşağın təbəssümündən böyük xoşbəxtlik yoxdur.

Novruzda çərşənbələr olur ki, bu da bayramdan 3 həftə öncə hər həftənin 2-ci günü qeyd olunur və hər çərşənbə günləri tonqal yandırılır. Birinci çərşənbə su, ikinci od, üçüncü yel, dördüncü, yəni sonuncu torpaq çərşənbəsidir.



Su çərşənbəsində dağların buzu əriyib çaylara tökülür. Odda günəş yavaş-yavaş torpağı qızdırır. Yel gülləri-çiçəkləri tərpədir. İlk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Orta Asiyadan Balkanlardakı millətlərə qədər geniş bir bölgədə yerli rənglər və inanclarla qeyd olunan Novruz, hər bir xalqın öz mədəni dəyərləri ilə eyniləşdirdiyi və simvollaşdırdığı, mahiyyət etibarilə yazın gəlişini qeyd etdiyi və coşqu ilə qarşılandığı bir gündür. Yaşadığı geniş coğrafiyada təbiətin və ətraf mühitin oyanışını qeyd edən Novruz bayramı Anadoluda və türk mədəniyyətinin yayıldığı bölgələrdə köklü və zəngin tarixə malikdir.

Nev (yeni) və ruz (Gün) sözlərinin birləşməsindən əmələ gələn və YENİ GÜN mənasını daşıyan Novruz Şimal yarımkürəsində başda türklər olmaqla bir çox xalq və toplumlar tərəfindən Yeni il kimi



qeyd olunur.

Gecə ilə gündüzün bərabərləşdiyi martın 21-də günəş köçəri quşlar kimi şimal yarımkürəsinə doğru çevrilir. Martın 21-i ilə havalar isinməyə, qar əriməyə, ağaclar çiçəklənməyə, torpaq yaşıllaşmağa, köçəri quşlar yuvalarına qayıtmağa başlayır. Bu səbəbdən 21 Mart bütün varlıqların oyanış, diriliş və yaradılış günü kimi qəbul edilir.

SİA Novruz bayramı və bayrama daxil olan çərşənbələr haqqında araşdırma apararaq ekspert, sosioloq və din xadiminin fikirlərini öyrənib:

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** "Novruz "təzə il" deməkdir. Müsəlman aləminin əsil yeni ili həmin gün, baharın ilk günü ilə başlayır. Novruz



bayramı halallıq, təmizlik bayramıdır. Bu milli bayramımızı sevinclə, təntənə ilə qarşılamaq üçün bütün evlərdə xüsusi hazırlıq gedir.

Uşaqlıq xatirələrimin ən gözəl anlarını xatırladan Novruz bayramı mənim ən çox sevdiyim bayramlardan biridir. Mənim uşaqlıq illərim Qubadlı rayonunun Məlikəhmədli kəndində keçib. Orada Novruz bayramı xüsusi təntənə ilə qarşılanırdı. Qonşular bir yerə yığışıb şəkər çörəklər bişirərdilər, səməni göyərdib, yumurta boyayıb, buğda qovurardılar, uşaqlar qapı- qapı gəzib bayram payı yığardılar, axşam da tonqal başına toplaşıb şənlənərdik.

Novruz bayramının gəlişindən xəbər verən çərşənbələrimiz də çox gözəl qeyd olunurdu. Həmin çərşənbələrdə kəndimizə Kəndirbazlar gələrdi, onlar kəndir üzərində öz maraqlı oyunları ilə şənliyimizə şənlik qatardılar. Axır çərşənbədə ən çox da gənc qızlar qulaq falına çıxardılar. Valideynlərimiz bizə deyərdilər ki, xoş sözlər danışaq ki, qulaq falına çıxanlar məyus olmasınlar.

Çox sevinirəm ki, bu gün də Novruz bayramı bütün ölkəmizdə təntənə ilə keçirilməsi ənənəsini davam etdirir".

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Azərbaycan milli-mənəvi sərvətləri içərisində Novruz Bayramı və ona qədər qış ayını əhatə edən böyük çillə, kiçik çillə, boz ay kimi ilaxır çərşənbələrin də xüsusi yeri var. İlaxır çərşənbələr 4 yerə bölünür və onlardan biri də Yel çərşənbəsidir.



İl ərzində baş verə biləcək təbii prosesləri proqnozlaşdırmaq üçün babalarımız çərşənbələrdə ümumi astronomik görüşlərini müəyyənləşdiriblər: "Çərşənbələrlə bağlı bu informasiyalar istər kənd təsərrüfatının inkişafı, istərsə də havanın necə olması baxımından bizə elmi bilgilər verə bilər. Novruz Bayramı Şərq və Orta Asiya xalqlarının müştərək bayramı kimi qeydə alınsa da, ilaxır çərşənbələr UNESKOnun qeyri-maddi mədəni irs siyahısına daxil edilməyib. Mədəniyyət Nazirliyi bu istiqamətdə işlər görməli, ilaxır çərşənbələr və onlarla bağlı adət-ənənələrin bütövlükdə UNESCO-da qeydiyyata alınması üçün çalışmalıdır.

Yel çərşənbəsi həm də insanların sosiallaşması, küsülülüyün aradan qaldırılması üçün bir vasitədir. Bu çərşənbədən etibarən insanlar bayrama hazırlıq görməyə başlayırlar. Keçmişdə ilaxır çərşənbələrin hər birində kiçik qruplar vasitəsilə kəndlərdə qaranlıq düşən kimi müxtəlif musiqi parçaları, bayatılar ifa olunurdu. İnsanlar bir-birinə xoş xəbərlər ötürürdü. İndiki dövrdə şəhərlərdə bu adət-ənənələr az hallarda yerinə yetirilir. Lakin, bəzi bölgələrdə xüsusilə Lənkəran zonasında keçmiş adətləri görmək mümkündür.

Dünyanın hər yerində, virtual aləmdə belə ilaxır çərşənbələr qeyd edilməyə başlayıb. Biz də Azərbaycanın milli dəyəri olan bu kulturoloji hadisəni dünyaya yaymalıyıq. Hətta iqtisadi cəhətdən ölkəmizə xeyir verən beynəlxalq turistləri cəlb etmək üçün də ilaxır çərşənbələri kreativ biznes forması kimi istifadə edə bilərik".

**Din xadimi Mircəfər Əyyubov**: "Novruz dini bayram deyil. Onu dini bayram kimi təqdim edənlərin ya dini biliyi olmur, ya da ki, həqiqəti bilsələr də "camaat nə deyir mən də onu deyim" deyirlər.

İslam dini hər bir müsbət ənənənin tərəfdarıdır. Novruz bayramında da müsbət ənənələr çoxdur.



Küsülülərin barışması, insanların ölənlərinin məzarını ziyarət etməsi, ailələrin bir yerə toplanması, bayram öncəsi təmizlik və qohum ziyarəti də bu müsbət hallara daxildir.

Bəzi hədislərdə Novruz bayramı ilə əlaqədar dualar da qeyd olunub. Hətta deyərdim ki, Novruz bayramı dünyəvi bayramlar arasında ən təbii bayramdır. Çünki həqiqətən baharda təbiət yenilənir və bu günü bayram kimi qeyd etmək məntiqlidir. Ölkəmizdə də əsrlər boyu bu bayram qeyd olunub".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib. Gəlin görək Bakı sakinləri Od çərşənbəsini necə qarşılayacaq?

**Şəhər sakini Şahlar Xuduzadə:** "Çərşənbələrə o qədər də




önəm vermirəm. Düşünürəm ki, əsas martın 21-22-si olan bayramdır. Sadəcə qohumlarıma və tanışlarıma bayram təbriki yollamağa biganə yanaşmıram. Lakin çərşənbələrdə evdəki xanımlarımız milli yeməklərimizdən hazırlayıb süfrəyə təqdim edir".

**Şəhər sakini Roşa Mehdiyev:** "Hər çərşənbə tonqal yandıraraq




dostlarımızla başına yığışırıq. Ən sevdiyim isə Od çərşənbəsidir. Səbəbi isə Od çərşənbəsinin digərlərindən maraqlı olmasıdır".

**Şəhər sakini Sənan Qasımov:** "Bütün bayramlarda işdə oluram. Buna Novruz bayramı da daxildir. Bizim çox gözəl bayram adət-ənənələrimiz var. Bayramda ən sevdiyim adət isə dostlarla ton-




qal başına yığışmaqdır. Bunun öz ləzzəti var".

**Şəhər sakini Şahverdi Zeynalov:** "Təəssüflər olsun ki, bu çərşənbə də keçən çərşənbə də işdə olmuşam. Bayramı dəyərləndirməyə heç cür vaxtım olmur. Ən sevdiyim isə tonqaldan hoppanmaqdır. Papaq atmaq da çox maraqlıdır.




Uşaqlıqda tez-tez papaq atırdıq".

**Şəhər sakini Həbib Əliyev:** "Sırf tonqal üçün sabahı səbirsizliklə gözləyirəm. Bu mənə çox maraqlı gəlir. Lakin işlədiyimə görə bayrama çox zaman ayıra bilmirəm. Adət-ənənələrimizi də çox




sevirəm. Amma fala inanmıram və heç vaxt da etdirməmişəm".

***Ayşən Vəli***

ARAŞDIRMA

# “Bu da dünyanın məhvinə aparacaq prosesin başlanğıcı ola bilər”

Trend Beynəlxalq İnformasiya Agentliyinin Baş direktorunun müavini Sahil Kərimlinin SİA-ya müsahibəsini təqdim edirik:

*- Rusiya-Ukrayna münaqişəsinin yaratdığı yeni real durumu necə şərh etmək olar?*

- Ukrayna ətrafında baş verən proseslər bütün dünya üçün təhlükə yaradır. Əvvəlki günlərdə hərbi əməliyyatlar bir qədər kiçik miqyas daşıyırdı. Getdikcə vəziyyət daha da ciddiləşməyə başladı.

Azərbaycan dövlətinin baş verən hadisələrə mövqeyi məlumdur. Azərbaycan dünyada daim sülhə və təhlükəsizliyə mühüm töhfələr verən bir dövlət olaraq bu məsələnin də sülh yolu ilə həll olunması mövqeyindən çıxış edir. Təəssüf ki, dünən Belarusiyada baş tutan görüşün də nəticəsi olmadı.

*- Rusiyanın özü üçün hansı mənfi tendensiyalar formalaşa bilər?*

- Artıq Rusiyaya qarşı bütün dünya, xüsusilə Qərb ölkələri sanksiyalar tətbiq edib. Bu sanksiyalar nəticəsində Rusiya rublu kəskin şəkildə dəyərini itirməyə başlayıb. Bu isə Rusiya iqtisadiyyatının çöküşünün göstəricilərindən biridir. Rusiya üçün mənfi




tendensiyalar bundan sonra da davam edəcək. Tətbiq olunan sanksiyaların yalnız Rusiya üçün deyil, bütün dünya iqtisadiyyatı üçün öz mənfi təsirləri olacaq.

*- Nüvə təhdidi hazırda gündəmdədir. Bunun nə dərəcədə qorxulu məcraya yönəlmə ehtimalı var?*

- Əlbəttə ki, nüvə atom silahı bütün dünya üçün böyük təhlükə yaradır. Əgər Qərb ölkələri Rusiyaya qarşı hərbi əməliyyatlardan istifadə edərsə ehtimal var ki Rusiya nüvə silahından istifadə etsin. Amma bu qarşılıqsız qalmayacaq. Bu da dünyanın məhvinə aparacaq prosesin başlanğıcı ola bilər.

*- Bəzi ekspertlər bu sanksiyaları kifayət qədər ciddi hesab etmirlər. Düşünülür ki, Rusiya üçün az əhəmiyyət kəsb edən bu sanksiyaların ticarət tərəfdaşlarına təsiri olmayacaq. Sizcə, sanksiyalar Rusiya iqtisadiyyatına ciddi zərər vura bilərmi?*

- Mən belə hesab etmirəm. Artıq sanksiyaların ilkin nəticələri görünməkdədir. Biraz öncə də qeyd etdiyim kimi, Rusiyanın milli valyutası çökmək üzrədir. Sanksiyalar çox güclü təsirə malikdir. Rusiyanın rəhbərliyinin, dövlət orqanları nümayəndələrinin, tanınmış insanların, mətbuat işçilərinin də sanksiyalara məruz qaldığını görürük. Bu da Rusiyanın xeyli zəifləməsinə, iqtisadiyyatın çöküşünə səbəb ola bilər.

*- Bu sanksiyalar paketinin tətbiqi kifayət qədər genişlənir. Bu sanksiyalardan Azərbaycan iqtisadiyyatına dəyən ziyanın həcmi maraqlıdır.*

- Azərbaycan bir çox ölkələrlə xüsusilə də Rusiya və Ukrayna ilə ticari əlaqələr quran bir ölkədir. Buna görə də həmin ölkələrin iqtisadiyyatında tendensiyalar baş verərsə bu bizim iqtisadiyyatımıza da təsirini göstərə bilər.

*- Baş verən proseslərin ərzaq bazarlarına təsirləri də maraqlıdır. Xüsusən taxılın qiyməti bundan sonra hansı dinamika nümayiş etdirəcək?*

- Hərbi əməliyyatlar nə qədər ki davam edəcək, qiymət artımı qaçılmazdır. Nəinki ərzaq, eyni zamanda, tikinti materiallarının da bahalaşması gözlənilir. Neft məhsulları da artıq bahalaşmağa doğru gedir. Bu da onu göstərir ki, münaqişə inkişaf etdiyi müddətdə bu proseslərdə qiymət artımı davam edəcək.

**Ləman Əlizadə**

# Ukrayna və Azərbaycan: fərqimiz nədədir?

**Qarabağdakı 44 günlük müharibədən, yeni Azərbaycanın ədalətli mübarizəsindən fərqli olaraq Ukraynanın haqlı mövqeyini dünyanın bir çox aparıcı, hegemon, habelə kifayət qədər hərbi gücləri mövcud olan dövlətləri dəstəkləyirlər**

44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyən və dəstəkləməyən cinahların olması kimsəyə sirr deyildi. Düzdür, istər tarixi reallıqlar, istərsə də hüquqi və beynəlxalq konvensiyalar da sübut edirdi və bu gün də, sabah da sübut edir ki, Qarabağ Azərbaycandır! Hətta Ermənistanın strateji müttəfiqi, o cümlədən, Qarabağ münaqişəsi faktorunda istər gizlin, istərsə də açıq - daha çox Ermənistanın yanında olduğunu nümayiş etdirən Rusiyanın prezidenti səviyyəsində Qarabağın Azərbaycana məxsus olması barədə fikiri bəyan edilmişdi. Lakin buna rəğmən, nəyin-necə olduğunu da bilənlər yaxşı bilir, eyni zamanda, Fransa, Yunanıstan, ABŞ kimi ölkələrin məlum siyasi dairələri hər vəchlə erməni utopiyalarına, ya da "məzlumkeşliyinə", "əzabkeşliyinə" istinad etmələri ilə açıq-aşkar işğalçılara dəstəklərini nümayiş etdirirdilər və bu barədə çoxsaylı faktlar da mövcuddur.

**Sübut olundu ki, artıq yeni dünya quruluşu heç də kağız üzərində yazılmış qətnamələr, qərarlar üzərində formalaşmır!**

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan xalqı və Silahlı Qüvvələri Ali Baş Komandanın ətrafında sıx birləşməklə müzəffər zəfərə, qələbəyə doğru inamla addımladı, bütün dünyaya haqq-ədalət mübarizəsinin necə aparılmalı olduğunu isbatlamış oldu. Dünyaya, eləcə də bəzi anti-Azərbaycan qüvvələrinə yalnız tarix deyil, həm də həqiqət dərsi keçən şanlı ordumuz Dövlət Başçısının sınmaz iradəsinə söykənərək ədaləti bərpa etdi. Sübut olundu ki, artıq yeni dünya quruluşu heç də kağız üzərində yazılmış qətnamələr, qərarlar üzərində formalaşmır, bu gün əsas gerçəklik haqlı və güclü olmaq meyarı ilə ölçülür. Təbii ki, bir də İlahi ədalət prinsipi...

Bəlkə də güclü olmasına rəğmən, ədalətsiz siyasət yürüdən dövlətlər də var və belə olan halda hazırda bəşəriyyətin nəzəri Ukraynaya tərəf yönəlib. Bu gün həmin ölkədə qanlı müharibə gedir və müharibədə iştirak edən tərəflərdən biri də məhz Rusiyadır. Ukrayna öz torpaqlarını separatçı meyillərdən təmizləmək üçün, Rusiya isə öz siyasi maraqlarını təmin etmək üçün bir-birləri ilə rəsmi savaş vəziyyətindədirlər.

## Ukrayna tək qalmayıb, ona kifayət qədər və müxtəlif cəhətlərdən çoxsaylı yardımlar olunur

Və bu gün, Qarabağdakı 44 günlük müharibədən, yeni Azərbaycanın ədalətli mübarizəsindən fərqli olaraq Ukraynanın haqlı mövqeyini dünyanın bir çox aparıcı, hegemon, habelə kifayət qədər hərbi gücləri mövcud olan dövlətləri dəstəkləyirlər. Bu gün ABŞ, Avropa İttifaqı ölkələri, həmçinin aparıcı Şərqi Avropa dövlətləri (bir neçəsi istisna olmaqla) Ukraynaya silah, hərbi texnika, digər təchizatlar göndərirlər, hətta qırıcı təyyarələrin də göndərilməsi barədə qərarlar verilib.



O cümlədən, aparıcı Avropa dövlətləri öz vətəndaşlarının könüllü qaydada Ukrayna silahlı qüvvələrinin tərkibində döyüşmələri ilə bağlı rəsmi icazələr də veriblər. Artıq Danimarka, Norveç, Finlandiya, Niderland, Horvatiya, Polşa və s. kimi digər ölkələrdən Rusiyaya qarşı döyüşməyə gedənlər də mövcuddur.

Əbəs deyil ki, Ukrayna dövləti rəsmi qaydada xarici legionlar təsis edib və onlar müdafiə nazirliyinin sərəncamına veriliblər. Yeni reallıq budur ki, Ukrayna tək qalmayıb, ona kifayət qədər və müxtəlif cəhətlərdən çoxsaylı yardımlar olunur.

## Fəqrimiz də məhz bu reallıqdadır

Məhz bu mənzərənin analizini apararkən, Azərbaycanın yanında yalnız Türkiyənin, Pakistanın olduğunu, bu ölkələrin mənəvi dəstək göstərmələrini xatırlatsaq, belə bir nəticə də hasil edə bilərik ki, mənəvi və hərbi cəhətdən daha çox yardımlar alan Ermənistan üzərində qazanılan qələbəmiz eyni zamanda, hərbçilərimizin sonsuz şücaətlərinin, qəhrəmanlıq salnamələrinin göstəricisidir. Təkcə 44 günlük müharibə zamanı işğalçı Ermənistan ordusunun tərkibində neçə-neçə ölkələrdən silahlı terrorçuların qatılması faktlarının da olması kimsəyə sirr deyil.

Daha bir məqam: Qarabağ müharibəsində Ukrayna da Azərbaycanın mövqeyini dəstəkləyən azsaylı ölkələrdən biri idi və bu gün Azərbaycan öz dostluq borcunu əlində olan bütün imkanları ilə qaytarır - çoxsaylı dövlət səviyyəsində humanitar yardımlar göndərilir, xalqın dəstək mesajları verilir və s.

Əlbəttə ki, Azərbaycan dövlətinin torpaqlarının 20 faizdən çoxunun işğala məruz qaldığı dövrlərdə hər gün (!) müharibəyə hazırlaşması, xalqımızın döyüş ruhunun ən yüksk və pik həddində olması, hərbi gücünü və iqtisadi potensialını doğru istiqamətdə artırması kimi danılmaz amilləri də unudulmamalıdır.

Fəqət, Ukraynada baş verənlərdə də istisna etmək olmaz ki, orada mübarizə aparan xalq arasından qəhrəmanlıqlar, şücaətlər göstərənlər var. Lakin fakt budur ki, Azərbaycan öz əzəli Qarabağ torpaqlarını çoxsaylı anti-Azərbaycan məqsədli güclərin, qüvvələrin Ermənistana göstərdikləri davamlı yardımları qarşısında azad etdi. Fəqrimiz də məhz bu reallıqdadır.

**Rövşən RƏSULOV**



# İmmunitet çatışmazlığı hansı xəstəliklərin yaranmasına səbəb olur?

**İmmunitetin çatışmazlığı müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Bu özünü ağır, təkrarlanan infeksiyalar kimi göstərir. SİA-nın məlumatına görə, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib. O qeyd edib ki, şiş əleyhinə immunitetin pozulması bəd xassəli törəmələrin inkişafına "dəstək" olur. Bəzən immun hüceyrələr bədənin öz hüceyrələrini məhv etməyə başlayır, bunlar autoimmun xəstəliklərdir.**

"İmmunitet sistemimiz bəzi maddələrə həddindən artıq reaksiya verdikdə, allergik xəstəliklər yaranır. Sağlam bir bədən immunitetin balanslaşdırılmış işləməsini təmin edir. Bir insanın immun sistemində hansısa qüsur müəyyən olunmayıbsa, təkrarlanan uzun müddətli bakterial, virus infeksiyaları və ya ağır yanaşı patologiyalar yoxdursa, onu məqsədyönlü şəkildə "gücləndirməyə" ehtiyac yoxdur", - deyə o əlavə edib.

# Azərbaycan pandemiya ilə mübarizədə dünyaya öz töhfəsini verir

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan pandemiyaya qarşı mübarizə istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib"

**Pandemiya qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə pandemiyanın tüğyan etdiyi bir dövrdə Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev bir sıra qlobal təşəbbüslərlə çıxış edərək qlobal liderlik rolunu üzərinə götürdü, pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.**

Elə bu günlərdə BMT Baş Assambleyasının "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda keçirilən yüksək səviyyəli tematik müzakirələrdə Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyev pandemiya dövründə BMT, Qoşulmama Hərəkatı və Ümumdünya Səhiyyə Təşkilatının yüksək səviyyəli fəaliyyətinə ümumi nəzər salmış, Azərbaycan dövlətinin təşəbbüsləri haqqında geniş məlumat vermişdir.

Bu sırada dövlət başçısının təşəbbüsü ilə Qoşulmama Hərəkatının 2020-ci ilin mayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabrında 150-dən çox ölkənin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar. Bununla yanaşı, koronavirusa qarşı vaksinlərin yeni istifadəyə buraxıldığı dövrdə bəzi ölkələr "peyvənd millətçiliyi" edərək onların bölünməsində qeyri-bərabərliyə üstünlük verirdilər. Əlbəttə, dünyada qlobal gücə çevrilən Azərbaycan rəhbərinin diqqətindən bu məqam yayına bilməzdi. Nəticədə, Prezidentin tapşırığı ilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə 2021-ci ilin martında yekdilliklə qəbul olunub. Bir sözlə, Azərbaycanın koronavirus pandemiyası ilə apardığı mübarizə bir daha onu göstərdi ki, ölkəmiz bu istiqamətdə qlobal səviyyədə liderliyini davam etdirir. Çünki Azərbaycan bəzi ölkələr kimi pandemiya ilə mübarizədə yaxasını kənara çəkmədi, əksinə, bütün müstəvilərdə xəstəliklə mübarizə zəminində hətta dünyaya da öz töhfəsini verdi.

### "AZƏRBAYCAN PANDEMİYAYA QARŞI MÜBARİZƏDƏ VACİB QLOBAL TƏŞƏBBÜSLƏRLƏ ÇIXIŞ EDİB"

"Azərbaycan pandemiya, "peyvənd millətçiliyi" və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib". Bunu Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev BMT Baş Assambleyasının sədrinin təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələr zamanı videoformatda təqdim olunan çıxışında deyib.

BMT Baş Assambleyasının Xüsusi Sessiyasının, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələrin bunun bariz nümunəsi olduğunu söyləyən Prezident İlham Əliyev həmin təşəbbüsləri dəstəkləmiş bütün üzv dövlətlərə minnətdarlığını bildirib.

"Həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardımı etmişdir. Bununla yanaşı, biz 5 ölkəyə peyvənd ianəsi etmişik və bu iş davam etdiriləcək. Hazırda biz Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesindəyik", - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusla videokonfrans formatında görüşü zamanı koronavirusa qarşı peyvəndlərin bölüşdürülməsində müşahidə edilən ayrıseçkilik məyusluq yaratdığını demişdir.

### "BU GÜNƏDƏK AZƏRBAYCANDA YETKİN ƏHALİNİN 68 FAİZİNƏ COVID-19 PEYVƏNDİN HƏR İKİ DOZASI VURULUB"

Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev BMT Baş Assambleyasının sədrinin təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələr zamanı videoformatda təqdim olunan çıxışında bildirib ki, Qoşulmama Hərəkatı pandemiyanın tezliklə aradan qaldırılması və effektiv bərpa prosesinə imkan yaradacaq beynəlxalq həmrəyliyin gücləndirilməsi üçün fəal şəkildə səylərini davam etdirməyə hazırdır. Dövlətimizin başçısı Qoşulmama Hərəkatına üzv dövlətlər adından deyib ki, Hərəkat post-COVID-19 dövrünün bərpa ehtiyacları ilə bağlı nəticəyönümlü təşəbbüslərlə çıxış edəcək.

Prezident İlham Əliyev çıxışında daha sonra Azərbaycanın COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün həyata keçirildiyi təsirli və adekvat tədbirlərdən danışaraq deyib: "Biz peyvəndlənmə kampaniyasına 2021-ci ilin yanvarında başlamışıq. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün bu ilin dövlət büdcəsindən 1.6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb".

### "BİZ BÜTÜN ÖLKƏLƏR ÜÇÜN PEYVƏNDLƏRƏ ƏLÇATANLIĞIN TƏMİN OLUNMASINA XİDMƏT EDƏN TƏŞƏBBÜSLƏRİ DƏSTƏKLƏYİRİK"

Heç təsadüfi deyil ki, Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib. Həmçinin, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib. Məhz Azərbaycanın bu istiqamətdə daha bir təşəbbüsü BMT səviyyəsində dəstək tapması, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin daha bir il müddətə - 2023-cü ilə qədər uzadılması və Prezident İlham Əliyevin təşəbbüslərinin beynəlxalq müstəvidə də dəstəklənməsi dünya dövlətlərinin Azərbaycan dövlətinə inamının göstəricisidir.

Göründüyü kimi, Azərbaycan BMT-nin ədalətli peyvəndləmə ilə bağlı qətnaməsinin dəstəklənməsi bir daha pandemiyaya qarşı mübarizədə "Azərbaycan nümunəsi", Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasətə inamının göstəricisidir. Xüsusilə də, beynəlxalq ictimaiyyət Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəkləməklə bir daha deyilənlərin real təzahürüdür.

Bir sözlə, bütün göstərilənlər onu deməyə əsas verir ki, artıq ölkəmiz, xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 19 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

***RƏFİQƏ HÜSEYNOVA***








# Kaş müharibə olmasın

## Bu, onun acılarını yaşayan bütün insanların istəyidir

**Müharibə Bu, sadəcə, səkkiz hərfin birləşməsindən yaranan söz deyil, səslənməsi ilə özündə dağıntıları, qırğınları, qanı, göz yaşını, ata-ana, övlad, nişanlı, sevgili itkisini, nisgili, kədəri ehtiva edən bir məfhumdur. Müharibənin ağırlığını onu yaşayanlar bilər. Gecənin qaranlığında yuxusunu bombardman səsləri pozanlar, bir anın içindəcə evsiz-eşiksiz qalanlar bilər.**

Balasını müharibəyə göndərib yuxusu ərşə qalxanlar, sağ-salamat yola saldığı övladını şəhid kimi qoynuna alanlar bilər, ömrünün sonunadək qara yaylıq bağlayıb,



*Mətanət MƏMMƏDOVA*
*Əməkdar jurnalist*

gözləri yollarda balasını axtaran, yuxuları tək övladı olan analar bilər. Müharibənin nə olduğunu qəm-qüssədən üzündə qırış çığırları açılan, kədərdən beli bükülən atalar bilər. Atasından doymayan, ata adı gələndə gözləri qapılara dikilən, həsədi yalnız atalı yaşıdları olan uşaqlar bilər. Müharibənin nə olduğunu sevdiyi insanın nişanəsini onsuz dünyaya gətirən qadınlar bilər. Övladına müharibədə şəhid olan sevdiyinin adını verib onu hər çağırdığında ürəyi nisgildən şırımlanan analar bilər. Toy hazırlığı sevincini müharibənin əlindən aldığı, nişanlısını davaya yola salıb, onu şəhid kimi qarşılayaraq qara torpaqla paylaşan qızlar bilər. Toyundan cəmi bir-iki il ötən, bir üzü qız, bir üzü gəlin olanlar bilər.

Biz azərbaycanlılar keçmiş SSRİ, sonrakı MDB ölkələri arasında ən çox müharibəyə məruz qalan xalqıq. Qonşuluqdan kənar qonşumuzun başımıza açdığı bəlalar bütün dünyaya məlumdur. Dünya xalqlarından bizə qarşı törədilənləri pisləyənlər arasında illərdir ki, susanlar da olsa, lakin həqiqətin kimin tərəfində olduğunu çox gözəl bilirlər. Əsrlər boyu bu xalqa qarşı törədilən soyqırımları, haqsız, ədalətsiz müharibələri hələ demirəm. Tək son 30 ilə təsadüf edən müharibələr bizə yaxın tarix olduğu və gözlərimiz qarşısında acınacaqlı mənzərələri canlandırdığı üçün onlardan danışmaq istəyirəm. Ermənilər tərəfindən 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı irəli sürülən iddialar Birinci Qarabağ müharibəsinin dəhşətini yaşatdı xalqımıza. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. İllərlə ev tikib, yurd salan soydaşlarımız doğma torpaqlarından didərgin salındılar. Öz ata-baba ocağından zorla çıxarılanlar Azərbaycanın dörd bir yanına səpələndilər. Onlar yurdlarını qoyub gəlmişdilər, nə əvəz edərdi yurdlarını onlara? Dədə-baba torpaqlarını, məzarlıqlarda əzizlərini qoyub gəlmişdilər, nə bu nisgilə su çiləyə bilərdi? Bar üstündə bağlarını, ruzi-bərəkətli torpaqlarını, evlərini qoyub gəlmişdilər, nə qarşılayardı bu acını? Onlar hara, hansı şəraitə gəlmişdilər? Azərbaycanın bugünkü gününə gəlməmişdilər, xeyr. Dövlətinin başında millətini əsla düşünməyən rəhbərlərin idarə etdikləri, iqtisadiyyatı tənəzzülə uğrayan, yoxsullaşmış vəziyyətdə olan ölkəmizə səpələnmişdilər. Nədən söhbət açım? İlk əvvəllər soydaşlarımızın yaşadığı evlərdənmi, oradakı şəraitin hansı vəziyyətdə olmasındanmı? Xanimanını qoyub çadır şəhərciklərdə ömrünün illərinin üstünə il gətirməklərindənmi?

Ümummilli Liderimizin, daha sonra isə dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərliyi dövründə müstəqil ölkəmizin inkişafı ilə bərabər, bütün səylər qaçqın-köçkünlərin rifahına yönəldi, çadır şəhərcikləri tamamilə ləğv olundu, hər bir qaçqın mənzillə təmin olundu. Onların məşğulluğu diqqətdə saxlanıldı. Bütün problemləri vaxtında həll olundu. Ən başlıcası isə onların bir gün öz ata-baba yurdlarına qayıtmaları gündəmdə daim birinci məsələ oldu və bunun üçün əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Axı dərd təkcə haradasa bir mənzildə yaşamaq, hərtərəfli təminat deyildi. Yuxarıda vurğuladığım müharibənin acılarını yaşamışdılar bu insanlar. Tək onlar yox, bütün xalqımız. Minlərlə itkilərimiz vardı. Son qanınadək torpaqların müdafiəsində dayanan oğullarımız şəhid olmuşdular. Gəl bir tərəfdən bu acıya döz, digər tərəfdənsə qoyub çıxdığın el-oba dərdinə. Gəl Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Şuşasız, Qubadlısız, Ağdamsız yaşa, görüm necə yaşayırsan. Gəl müharibənin əlindən aldığı bu torpaqların haylı-haraylı, toylu-büsatlı günlərini unut, görüm necə unudursan. Gəl doğmaların uyuyan o qəbirləri düşmənin əlində qoy, rahat yaşa, görüm necə yaşayırsan? Gəl həm canından qoparılan yurdunun, həm də minlərlə şəhidinin nisgilini bircə dəqiqə unut, görüm necə unudursan

Düz 30 il, bu, az vaxt deyildi. Zamanın bir qərinəyə yaxın kəsiyi idi. Qaçqın-köçkünlərimiz nə qədər hərtərəfli qayğı ilə əhatə olunsalar da, axı onların canları o torpaqlarda idi. Nə vaxtsa yurdlarına qayıtmaq bu insanların tək arzusu idi. Müharibə istəmirdilər, yenidən fəlakət, qan görmək, şəhid qarşılamaq istəmirdilər. Lakin ocaqlarına yenidən qayıtmaqdan başqa istəkləri də yox idi. Bəs bu necə ola bilərdi? Məsələnin sülh yolu ilə həll olunması üçün istər ümummilli liderimiz Heydər Əliyev, istərsə də hər zaman "Biz sülh istəyirik, müharibə istəmirik",- deyən dövlətimizin başçısı uzun illər dünyaya çağırış etdilər. Qarabağ məsələsinin dinc yolla həll olunması üçün illərlə beynəlxalq təşkilatlarla danışıqlar apardılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Çünki dünya ədalətsizlərdən xali deyil. Bəs Qarabağ necə, düşmən əlində qala bilməzdi axı. Elə bu barədə Ulu Öndər deyirdi: "Təbiidir ki, biz Azərbaycanın suverenliyini bərpa edəcəyik. Torpaqlarımızın, ərazimizin bütövlüyünü bərpa edəcəyik. Amma hələlik, biz bunu sülh yolu ilə, beynəlxalq təşkilatların, ATƏT-in Minsk Qrupunun iştirakı ilə, onların köməyi ilə etmək istəyirik. Doğrudur, neçə illərdir ki, bu proses davam edir, danışıqlar gedir. Bu danışıqların əksəriyyəti mənim tərəfimdən aparılır. Mənim ətrafımda bu işlə məşğul olan vəzifəli şəxslər tərəfindən aparılır. Nəticə yoxdur. Amma bu, o demək deyildir ki, sülh danışıqlarının potensialı tükənibdir. Yox! Hələ var. Ona görə də biz yenidən müharibəyə başlamaq istəmirik. Biz istəmirik qan tökək. Başa düşürsünüzmü? Əgər bir şeyi sülh yolu ilə etmək olarsa, bir az da dözək, amma sülh yolu ilə həll edək. Ancaq həll edə bilməsək, təbiidir ki, biz torpaqlarımızı erməni işğalçılarının tapdağı altında qoya bilmərik. Biz onları mütləq azad edəcəyik. Nəyin bahasına olursa-olsun, hansı qüvvə ilə olursa-olsun, biz onları azad edəcəyik. Bunun üçün biz xalqımızın, vətəndaşlarımızın vətənpərvərlik hisslərini daha da gücləndirməliyik, artırmalıyıq".

Lakin beynəlxalq təşkilatlar susdu. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliyə, başladığı müharibəyə, tökdüyü qanlara, minlərlə itkilərimizə, dağıdılan, yandırılan yurdlarımıza göz yumdu. İnsan haqlarına əhəmiyyət vermədi, insan amilinə saygı duymadı. Biz müharibə istəmirdik. Lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil ".

Bəli, biz İkinci Qarabağ müharibəsini də yaşamalı olduq. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 44 gün Qarabağda qanlı-qadalı müharibə getdi. Yenə müharibəyə xas əlamətlər: fəlakətlər, dağıntılar, ölümlər, dinc əhalinin gözlənilməyən anda itkiləri, hər gün cəbhədən gələn qara xəbərlər, hər gün yüzlərlə şəhid, qan qoxusu, göz yaşları, nalə, fəryad səsləri

Bax, budur müharibə. İstəmirdik, amma məcburduq. Bizi orada torpaqlarımız gözləyirdi, namusumuz, qeyrətimiz, mənəviyyatımız olan torpaqlarımız. Zəfər bizim oldu. Minlərlə şəhid versək də, minlərlə qazilərimiz olsa da, minlərlə dinc sakinimiz xəsarət alsa da, evləri dağılsa da, zəfər çaldıq. Çünki bu, haqq savaşı, haqq etdiyimiz zəfər idi. Qayıtdıq Qarabağa, 30 il sonra qayıtdıq. Övladlarımız kimi şəhid Qarabağa qayıtdıq. 30 ildə dağıdılan, daşı daş üstə olmayan yurda qayıtdıq. Müharibənin fəlakətləri bax, budur. İzlədik, üzüldük Hanı o tarixi abidələrimiz, qədim məscid, pirlərimiz, məktəblərimiz, xəstəxanalarımız Hanı o mərtəbəli evlərimiz, həyətlərimiz. Yolları itib, çığırları ot basıb. Heç tapmadıq əzizlərimizin qəbrlərini. Dağıdılıb hamısı. "Hanı, hanı, bəs o hanı?",- deyə-deyə çox dolandıq yurdumuzu. Amma suallarımız cavabsız qaldı. Çünki bu yurd iki dəfə müharibədən çıxmışdı. Tale yazımız olmuşdu erməni ilə qonşu olmaq.

Lakin ən dəhşətlisi budur ki, müharibə hər iki tərəfin itkisidir, həm haqlının, həm haqsızın. Dünyanın harasında olursa olsun, o yerdə ki, müharibə vardır, orada nalə, imdad səsləri, uşaq çığırtıları, hər gün insan ölümü, hər gün dağıntı vardır. Ana dünyanın hər yerində ana, bala hər yerində göz nuru, ürək parasıdır. Yurd dünyanın hər yerində candan əziz, ocaq dünyanın hər yerində ondan uzaqda olana təşnədir. Bomba səsi bütün insanlar üçün fəlakətdir. Dağıntılar hər bir ölkə üçün iqtisadi tənəzzüldür. Müharibə məfhumu bütün dünya xalqları üçün fəlakətlər toplusudur. Belə isə müharibələrin dəhşəti ruhuina hopmuş bir azərbaycanlı olaraq demək istəyirəm ki, kaş ki müharibələr olmaya.

**Mətanət MƏMMƏDOVA**

---

## DİQQƏT: Bəzi saytların fəaliyyəti məhdudlaşdırılır?

*MEDİA RƏSMİSİ AÇIQLADI*

Xəbər verildiyi kimi ən azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş gənc ailənin üzvü olan şəxs güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olacaq. Bu məsələ Prezident İlham Əliyevin imzaladığı fərmanla "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda edilən dəyişiklikdə əksini tapıb. Jurnalistlərə güzəştli şərtlərlə



kredit verilməsi prosesinin nə zaman başlayacağı barədə SİA Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyevanın fikirlərini öyrənib. Səidə Şəfiyeva bildirib ki, iki ay müddətində Nazirlər Kabineti Media Reyestrinin işə düşməsi ilə bağlı layihə hazırlanıb təsdiqləndən sonra jurnalistlərə güzəştli ipotekaların verilməsi ilə bağlı açıqlama veriləcək.

Səidə Şəfiyeva həmçinin bəzi saytların fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı fikrini bildirib. O, qeyd edib ki, heç bir saytın fəaliyyətinə məhdudiyyətin qoyulması qanunvericilikdə tənzimlənməyib: "Sadəcə kimlər könüllü olaraq Media Reyestrinə düşmək istəyirsə, qeydiyyatdan keçə bilər. Amma bu o demək deyil ki, digər saytlar öz fəaliyyətini davam etdirəcək. Həmin saytların fəaliyyətinin məhdudlaşdırılması kimi bir məsələ ortada yoxdur. Əgər, həmin saytlar daxil olmaq istəmirlərsə, onlar reyestrdə olmayacaq. Bu onların öz istəyi ilə bağlı bir məsələdir".

***Arzu Qurbanzadə***

## "Azərbaycanın Ukraynaya humanitar yardım göstərməsi humanizm prinsiplərinə əsaslanır"

"Azərbaycan Respublikasının Ukraynaya humanitar yardım göstərməsi humanizm prinsiplərinə əsaslanır. Ukraynada baş vermiş müharibə həm də humanitar fəlakət yaradıb. Çünki insanların çoxlu sığınacaqlarda gizlənirlər. Aralarında qadınlar, uşaqlar, hamilə qadınlar və digər qayğıya ehtiyacı olan insanlar var. Bu baxımdan, humanitar yardımın edilməsi humanist dəyərlərdən irəli gəlir". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.

Onun sözlərinə görə, Bakının sakinləri Ukraynanın Azərbaycandakı səfirliyi önündə də Ukraynaya dəstək mitinqi keçirdilər: "Bu, Ukrayna xalqına dəstək xarakteri daşıyırdı və eyni zamanda, Ukrayna tərəfində də bu, rəğbətlə qarşılanmışdır. Bu barədə Ukraynanın Azərbaycandakı səfiri öz sosial şəbəkə hesabların da bildirmişdir. Ukraynaya humanitar yardımın göstərməsi və dəstək mitinqinin həyata keçirilməsi Azərbaycanın Ukraynaya mənəvi dəstək verdiyini göstərir. Sosial şəbəkələrdə də vətəndaşlar öz profil şəkillərini Ukrayna bayrağına bürüyürlər və Ukraynaya dəstək mahiyyəti daşıyan postlar paylaşırlar. Müşahidələrimiz də onu göstərir ki, hazırkı durumda Ukraynanın ərazisinə müdaxilə olunmasını çoxsaylı vətəndaşlarımız qınayır və Ukraynaya dəstək həyata keçirilir".

***Gülyana***

# ARAŞDIRMA



# Qumar vaxtı bəziləri öz arvadını və qızını uduzur

**Oynayana qazanc və ya zərər gətirən hər cür şans oyunu qumar adlanır. Günümüzdə isə gizli yollarla bu oyunu oynayanların sayı kifayət qədərdir. Qumar bir çox ailənin sonu və ya boşanma səbəbidir. Bu, qurtulması çətin olan bir aludəçilikdir. Yaşından asılı olmayaraq, xüsusilə də kişilər bu oyun tiplərinə xüsusi maraq göstərir.**

İnsanlar yalnız qazanmaq ümidi ilə qumar oynamırlar. Psixoloq Mark Griffiths deyir ki, qumarbazların bu vərdişlərin arxasında müxtəlif motivlər var.

## Pul, əyləncə, həyəcan

5500 qumarbaz üzərində aparılan araşdırmada ən böyük motivasiyanın "çox pul qazanmaq" olduğu görülüb. Lakin bundan dərhal sonra "əyləncəli" və "həyəcan" faktorları qeyd olunub.

Griffiths deyir ki, "qumarda uduzduğunuzda belə, bədəniniz hələ də adrenalin və endorfin istehsal edir, bu da sizə həyəcan verir, bir növ "pul əyləncə alır" deyir.

2009-cu ildə Stanford Universitetində aparılan bir araşdırma, insanların 92 faizinin "uduzma həddi"nə sahib olduğunu və bundan kənara çıxmayacağını, lakin qumarda pul itirmələrinin onların əyləncəsinə çox da təsir etmədiyini göstərdi.

İngiltərədəki təcrübələr göstərdi ki, əgər qumarbaz udmaq gözləntilərini aşağı səviyyədə saxlayırsa, qalib gəldikdə onların reaksiyası da daha böyük olur. Bu, həm onların öz hisslərini ifadə etmələri baxımından, həm də beyin taramalarında belə idi.

**Rutledge deyir:** "İnsan bir müddət uduzduqda, gözləntiləri aşağı olur, buna görə də sonradan qazandıqda xoşbəxtlik reytinqi yüksəlir".

Elektron oyun maşınlarının oyunçular üzərində təsiri ilə bağlı araşdırmalar aparan Griffiths, slot maşınlarının da insanları mani-



pulyasiya edən cəhətlərinin olduğunu, məsələn, qırmızı kimi cəlbedici rənglərin istifadə edildiyini və çıxardıqları səslərin oyunçuları daha çox oynamağa təşviq etdiyini söyləyir

Patoloji qumarbazlar üçün önəmli olan mükafatdan çox, mükafatın artıqlaması və ya hansı qumarda udduqlarıdır.

Griffiths İngiltərədəki oyun maşınlarına da bir misal gətirir: bunlar oyunçunu ilkin qoyulan puldan daha çox mükafat təklif edərək daha uzun müddət oynamağa təşviq etmək üçün qurulub. Bəzi oyunçular bunu bildiklərinə görə, lazımi anda maşında olmağı təşkil etməyə çalışırlar.

Bütün bunlar göstərir ki, qumar əslində udmaq üçün deyil. Lakin xəstəlik səviyyəsin-



dəki qumar oyunları bu qədər sadə izah edilə bilməz. Bu asılılığın yaranmasının səbəbləri çox müxtəlif ola bilər.

Şans oyunları ilə pul qazanmaq istəyənlər üçün riskli alternativ olan kazinolar 1998-ci ildən Türkiyədə qadağan edilib və bağlanıb. Mənfi nəticələrə səbəb ola biləcəyi üçün bu tip oyunları tövsiyə edilmir. Şans oyunları oynamaq istəyənlər və kazinoların qadağan olunmadığı ölkə və şəhərlərlə maraqlananlar üçün bu ölkələri təqdim edirik:

## Şimali Kipr Türk Respublikası

Şans oyunları oynamağın qanuni olması səbəbindən Türkiyədən çox sayda turistin ziyarət etdiyi Şimali Kiprdə bir çox kazinolar var. KKTC Türkiyə vətəndaşlarından pasport və ya viza tələb etmir. Rocks, Cratos və Merit adanın məşhur kazinolarıdır.

## Yunanıstan

Yunanıstan və Yunan adaları da şans oyunları oynamaq istəyənlərin getdiyi yerlər sırasındadır. Türkiyə ilə mədəni fərqlərin çox olmadığı Yunanıstanın gecə həyatı ilə məşhur olan Afina kimi paytaxtı, Mykonos və Santorini kimi bir çox əyləncə adaları var.

## Batum

Son illər şans oyunları oynamaq üçün Gürcüstanın Batumi şəhərinə gedənlərin 75%-dən çoxunun Türkiyədən gəldiyi məlumdur. Türkiyədən Batumiyə keçərkən yalnız şəxsiyyət vəsiqəsi və çox aşağı ödəniş tələb olunur.

## Monte Karlo

Monakonu zəngin şəhər-dövlətə çevirən xüsusiyyətlərdən biri də kazinolardır. Monte Karlo şəhərində möhtəşəm strukturları ilə çoxlu kazinolar var. İnsanların çoxu gözəl mühiti görmək üçün qapısında məşhur avtomobil markalarının olduğu Monte Karlo oyun zonasına gəlir. Buradakı kazinoları böyük və kiçikə bölə bilərik. Böyüklərdə, həqiqətən zənginlər, giriş haqqı ilə oynayır.

## Makedoniya

Balkanlarda ən çox seçilən kazinoların Makedoniya olduğunu söyləyə bilərik. Xüsusilə Skopyedə gecə həyatı və şans oyunları turizmi də inkişaf edib.

## Makao

Bir çoxunuza Çində, Uzaq Şərqin ürəyində belə məşhur qumar şəhəri yaratmaq maraqlı ola bilər, lakin dünyanın ən məşhur kazinolarının əksəriyyəti buradadır. Venesiya Makaosu həm otel otaqları, həm də oyunları ilə məşhurdur.

## Las Vegas

Qumar dedikdə ağıla ilk gələn yer səhrada tikilmiş onlarla kazino və əyləncə məkanları ilə məşhur olan Las Veqasdır. Əyləncəli, oynayan və 24/7 əfsanəvi binaları olan dövlət. O, həm də Hollivud filmlərinin ən çox baxılan məkanlarından biridir. Rio All Suite Hotel və Casino, Bellagio və GM Grand Casino Las Vegasdakı ən yaxşı kazinolardır.

## Dünyanın ən məşhur qumar şəhərləri:

1-Las-Veqas-Nevada-ABŞ
2-Makao-Çin
3-Atlantik Siti-Nyu Cersi-ABŞ
4-Monte Karlo-Monako
5-Reno-Nevado-ABŞ
6-London-İngiltərə
7-Sinqapur
8-Aruba-Karib dənizi
9-San Juan-Puerto Riko
10-Kipr

Azərbaycanda isə qumar oyunları oynamaq qadağandır. Belə ki, Milli Məclisin iclasında III oxunuşda müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsində bu məsələ əksini tapıb.

Dəyişikliyə əsasən, qumar oynamağa görə oyun ləvazimatı, həmçinin qumar oyunu nəticəsində mərc qismində verilmiş (ödənilmiş) pul vəsaitləri və ya digər əmlak, qazanılmış uduş, mükafat və ya digər gəlir müsadirə edilməklə 5 min manat məbləğində cərimə tətbiq olunacaq.

Hazırda qüvvədə olan qanuna görə, qumar oynamağa görə oyun ləvazimatı, habelə qumara qoyulmuş pul vəsaitləri və ya digər əmlak müsadirə edilməklə 400 manatdan 600 manatadək məbləğdə cərimə tətbiq olunur.

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və din xadimlərinin fikirlərini öyrənib:

**Din xadimi Mircəfər Eyyubov:** "Dinimizdə qumar oynamağın hökmü günah və haramdır. Bunun əsası Qurani-Kərimin Maidə surəsinin 90-91-ci ayələrindən götürülüb. Belə ki, Maidə surəsinin 90-cı ayəsində Allah Təala qumarın şeytan əməli olduğunu qeyd edir, qumardan



uzaq qalmağı vacib sayır, qumar oynamağı bütpərəstliklə, spirtli içkilər qəbul etməklə eyni səviyyədə sayır. Maidə surəsinin 91-ci ayəsində isə qumarın haramlığının hikmətlərindən birini qeyd edir. Buyurur ki, şeytan qumar vasitəsilə aranıza nifaq, düşmənçilik toxumu səpir. Ona görə də ondan uzaq olun. Bu həqiqətən də belədir. Qumar psixoloji olaraq insanı əsəbiləşdirən, tamahkar edən, daha çox qazanc əldə etməyə sövq edən bir oyundur. Təsadüfi deyil ki, Qurani-Kərimdə qumar oynamaq məysir adlanır və məysir də asan gəlir əldə etməkdir.

Qumarbaz çox asanlıqla kiminsə bütün varidatını, hətta bəzi hallarda ifrata varan hallarda ailəsini, əzizlərini belə ondan ala bilir və bizim İslami hədislərdə deyilir ki, qumarbaz həmişə uduzur. Udan qumarbaz da, uduzan qumarbaz da uduzur. Çünki, uduzan qumarbazın uduzması məlumdur. Udan qumarbaz isə növbəti qazanclar əldə etməyə səy göstərdiyi üçün qarşı tərəfin qürura toxunan tənələrini eşitdiyi üçün daim qumar oynamağa cəlb olunur. Qumar oynamağa cəlb olundusa təbii ki, həmişə uda bilmir, yenə də uduzmağa məhkum olur, əsəbiləşir, əsəbləşdikcə əsəblərini qumar qələbələri ilə həmişə təmin edə bilmədiyi üçün içkiyə, narkotik maddələrə, əxlaqsız hərəkətlərə qurşanır. Bir sözlə qumar ev yıxan bir əməldir.

Dinimizdə qumar nəyə deyilir? Qumar şərtli şəkildə qurulan oyunlara deyilir. Yəni, iki şəxs şərtləşir ki, "əgər mən udsam sən mənə bu qədər nəsə verəcəksən, sən udsan mən sənə verəcəm". Bu qumardır və haram adlanır. İstənilən oyun şərtli olsa qumar adlanır və haramdır. Əlbəttə şəriətimizdə iki istisna qoyulub. Biri ox atmaq, biri də at çapmaq. Yarışları qumar şərti də olsa haram deyil. Təbii ki, səbəblərindən biri odur ki, onlar insanların hərbi inkişafına səbəb olan əməllərdir. Bunlar insanın çevikliyinə səbəb olan əməllərdir. Ona görə də ox atmaq və at çapmaq bir şərtlə ki, insan özü onda iştirak etsin. Yəni, başqa ox atanın yarışına pul qoyub oynamaq halal deyil, ya başqası at çapırsa mən o yarışa pul qoyum oynayım o da halal deyil. Özüm ox atıramsa və ya özüm at çapıramsa şərtləşib oynaya bilərəm. Bu istisnalardan başqa bütün şərtli oyunlar qadağan olunur və haram sayılır".

**Psixoloq Zeynəb Eyyubova:** "Aludəçilik yaradan bütün problemlər insanın yaşam tərzinə və psixologiyasına mənfi təsir edir. Burada məsələyə iki aspektdən yanaşmaq lazımdır. Birincisi, insan özü fərqindədirmi ki, onun qumar alüdəçiliyi var? İkincisi isə bu gün dünyada qumarı elitar təbəqənin əyləncəsi kimi ortaya qoyurlar. Günümüzdə qumara elitar təbəqənin əyləncəsi kimi baxılır. Əgər insanlarda bu anlayışı dəyişsək, qumarın mənfi təsirini anlatsaq bəlkə onları maariflәndirmək olar".



**Sosioloq Əhməd Qəşəmoğlu:** "Qumar oynamaq günahdır və İslam dinində də qadağan olunub. Yəni, qumar elə bir şeydir ki, insan orada hiylə işlədir, kimisə aldadır.

Qumar insanın daxilində idarə olunmayan hisləri hərəkətə gətirir. İnsan öz iradəsinə zidd hərəkətlər edir. Tamah deyilən faktor da daha da güclənir.



Daha sonra insan uduzanda psixoloji sarsıntı keçirir. Udan zaman isə şirnikir. Bunların hər biri normal davranış qaydalarını pozur. Ona görə qumar oynamağa harada yol verilirsə böyük səhv edilir. Həmçinin qumarın bir çox qaydaları var. "Topaz" da buraya daxildir. Bunlar hamısı qumardır. Belə halların cəmiyyətdə yayılması çox xoşagəlməz haldır.

Qumar oynayan insanlara min illər boyu bütün dahilər keyfiyyətsiz insan kimi baxır. Qumar vaxtı bəziləri öz arvadını və qızını uduzur. Buna görə harada ki sənin o tamahkarlıq faktorunu inkişaf etdirən oyunlar varsa, bunlar hamısı qumardır.

Mən, ümumiyyətlə qumar əlamətləri olan oyunların qadağan olunmasının tərəfdarıyam. Bu oyunlar olduqca cəmiyyətdə xoşagəlməz hallar formalaşır və mənəvi dəyərlərə ziyan vurulur".

***Ayşən Vəli***

# “Rusiya müharibəni dayandırmaq fikrində deyil”

*Politoloq Anar Əliyevin "Səs" qəzetinə müsahibəsi*



***- Anar müəllim, Rusiya-Ukrayna müharibəsi genişlənə və bütövlükdə Avropanı bürüyə bilərmi?***

- Təəssüflər olsun ki, ABŞ və onun Qərb müttəfiqləri ilə Rusiya arasındakı mübarizə Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə nəticələndi. Artıq bu hərbi müdaxilənin mənfi nəticələrini Ukrayna xalqı və dövləti ciddi şəkildə yaşamaqda və çəkməkdədir. Amma Qərb dövlətləri və Amerika tərəfindən Rusiyaya qarşı proqnozlaşdırılması belə mümkün olmayan çox böyük həcmli iqtisadi sanksiyaların tətbiq olunub. Buna baxmayaraq, Rusiya müharibəni dayandırmaq fikrində deyil. Eyni zamanda, Rusiyanın Ukraynanın neytral zonaya çevrilməsi ilə bağlı Ukrayna tərəfindən artıq ilkin razılaşmaların verilməsi onu deməyə imkan verir ki, qısa müddət ərzində münaqişə özünün tənzimlənmə mərhələsinə daxil olacaq. Dünən Ukrayna və Rusiya nümayəndələri arasında Belarusda keçirilən görüşdə bunu deməyə imkan verir.

***- Yayılan məlumatlara görə, görüş nəticəsiz qalıb. Bundan sonra hadisələr necə olacaq?***

- Bəli, əvvəldən də proqnozlaşdırıldığı kimi, ilkin görüşdə tərəflər öz tələblərini qarşı tərəfə səsləndirməklə danışıqlara başladılar. Amma hesab edirəm ki, artıq təmasların başlanması özü bir irəliləyişdir. İki münaqişədə olan tərəf arasında nümayəndə heyəti səviyyəsində masa arxasında müzakirələrin aparılması artıq hərbi əməliyyatların yaxın vaxtlarda dayandırılacağı və məsələlərin, münasibətlərin diplomatik yollarla danışıqlar vasitəsi ilə həllinə cəhd ediləcəyini deməyə imkan verir. Amma təbii ki, müharibə qısa müddət ərzində də çox ciddi fəsadlarını törətməkdədir. Bu fəsadlar yalnız Ukrayna və Rusiya dövlətinə zərbələr vurmaqla yekunlaşmadı. Artıq yüz minlərlə ukraynalı vətəndaş münaqişədən yayınmaq və qaçmaq üçün Avropaya üz tutur ki, bunlar təbii ki, indiki halda Avropa üçün çox ciddi miqrand yaradır. Eyni zamanda, artıq neft məhsulları, neft məhsullarının və xüsusilə də mavi qazın, məişət qazının qiymətlərində sürətli artım baş veribdir. Avropa ölkələrinin qaz anbarlarında bəzi məlumatlara görə, hətta 95 faizə qədər ehtiyatlar artıq tükənib, istifadə edilibdir. Bu fonda təbii ki, Avropa dövlətləri və Avropa istehlakçısı münaqişənin həm də iqtisadi nəticələrini, zərbələrini öz üzərində görməkdədir.

***- Deməli, müharibənin dayandırılmasında Avropa dövlətləri maraqlı olacaqlar?***

- Bəli, hesab edirəm ki, Ukrayna və Rusiya arasında münaqişənin danışıqlar müstəvisinə keçməsində həm də Avropa xalqları və dövlətləri maraqlıdırlar. Tərəflər arasında razılaşmaların əldə olunması Avropa dövlətləri də ciddi cəhdlərlə öz töhfəsini verməyə çalışacaqlar. Münaqişə danışıqlar yolu ilə nəticələr əldə edilərsə hesab edirəm ki, Rusiyaya qarşı tətbiq edilən və tətbiq edilməsi planlaşdırılan bir çox sanksiyalarda aradan qaldırılmış ola bilər. Bu regionumuz, bölgəmiz, eyni zamanda, Ukrayna və Rusiya dövlətləri, xalqları xüsusilə də Şərqi Avropa ölkələri, onların iqtisadiyyatı üçün də çox böyük problemlərin, zərbələrin qarşısını almış olacaqdır.

***- Müharibənin uzanmasından dünya hansı zərərləri görə bilər?***

- Hesab edirəm ki, Rusiya mətbuatının və ya Qərb mətbuatının səsləndirdiyi kimi heç də bu münaqişə birtərəfli qaydada bir tərəfə zərbə, ziyanlar vurmaqla yekunlaşmayacaqdır. Bu münaqişənin vurduğu zərbələri demək olar ki, dünya iqtisadiyyatı və dövlətlərarası münasibətlərdə, beynəlxalq münasibətlərdə çox ciddi yeni elementlərlə özünü göstərəcəkdir. Eyni zamanda, hesab edirəm ki, Rusiya Ukrayna böhranı yeni bir situasiya, dünya düzəni formalaşdırdı və bu situasiyadan irəli gələrək bu situasiyanın irəli sürdüyü tələbin nəticəsi olaraq, həm beynəlxalq təşkilat olaraq, BMT-nin və onun Təhlükəsizlik Şurasının daha işlək bir mexanizmə çevrilməsi ilə bağlı yaxın qarşıdakı illərdə biz çağırışların, təkliflərin səsləndirilməsini eşidə biləcəyik. Eyni zamanda, Ukrayna böhranı həm də dövlətlərin ərazi bütövlüyü, sərhəd toxunulmazlığı məsələsinə xüsusilə də, separatçı rejimlərə qarşı beynəlxalq müstəvidə mövcud olan ikili yanaşmanın nə qədər qorxulu olduğunu bir daha göstərdi. Məsələn, Luqansk və Donetskdə separatçı rejimlərinin Rusiya tərəfindən tanınmasını kəskin şəkildə qınayan Fransa dövləti və senatı Azərbaycan daxilində yeni Qarabağdakı erməni separatçılarını ”Dağlıq Qarabağ respublikası”nı tanınması ilə bağlı qərar qəbul etmişdi və bu ikili yanaşma, belə ikili standart dövlətlərin daxilindəki, separatçı rejimlər mahiyyəti baxımından deyil, həmin dövlətlərin maraqları baxımından yanaşılmasını nə qədər təhlükəli və qorxulu insidentlər və tendensiya yaratdığını bir daha nümayiş etdirdi. Hesab edirəm ki, bu istiqamətdə də yeni yanaşmanın zəruriliyi artıq dünya dövlətləri və xalqları üçün qəbul edilmiş oldu.

**Gülyana**

ANALİTİK + AKTUAL

# Türkiyə Kiyevin xahişini nəzərə alacaqmı?

*Montryö Konvensiyası Ankaranın əlindədir*

**Məlum olduğu kimi, Ukraynanın Türkiyədəki səfiri Vasili Bodnar Ankaradan Kiyevin maraqları naminə boğazları Rusiya gəmiləri üçün bağlamağı xahiş edib. Lakin belə olan halda sual yaranır: Montryö Konvensiyası çərçivəsində həqiqətənmi boğazları bağlamaq mümkündür? Etni zamanda bu sualdan daha bir sual da doğur: Ukraynanın bu xahişini yerinə yetirmək, yəni Bosfor və Daedanel boğazlarını bağlamaq adıçəkilən Konvensiyanın vəziyyətini aktual edirmi?**



Xatırladaq ki, Montryö Konvensiyası 1936-cı ildə imzalanıb və burada məq səs Qara dənizə, eləcə də Qara dəmizə aid olmayan ölkələrə çıxış etmək üçün gəmilərin tonnaj rejiminə nəzarət etməkdən ibarətdir. Həmçinin, Konvensiyada bir sıra detallar var, lakin diqqəti məhz Türkiyənin həlledici məqamlarda qərar vermək hüququna yönəldərək növbəti nəticələrə gələ bilərik:

Belə ki, ilk növbədə Konvensiyaya görə, istənilən gəmi boğzadan keçə bilər, lakin Türkiyənin istər müharibə edən tərəflərin gəmiləri üçün, istərsə də irimiqyaslı müharibə təhlükəsi yarandığı halda boğazları bağlamaq hüququ mövcuddur. Konvensiyanın 20 və 21-ci bəndləri məhz Türkiyənin hərbi əməliyyatlar zamanı son qərar vermək hüququna malik olmasını əkd etdirir 2, 4,6-cı bəndlər isə ticari məqsədli gəmilərə aiddir.

### Montryö Konvensiyasında nə deyilir?

1. Müharibə vaxtı:

Türkiyə münaqişə tərəfi deyilsə, istənilən bayraq altında və istənilən yüklə ticarət gəmiləri boğazlardan sərbəst keçə bilər. Türkiyə müharibəyə cəlb olunarsa, Ankaranın müharibə aparmadığı dövlətlərin ticarət gəmiləri düşmən tərəfə yardım etməmək şərti ilə boğazlardan sərbəst keçə bilər. Bu cür gəmilər gündüz saatlarında boğazlara girə və Türkiyə hakimiyyətinin göstərdiyi marşrutlar üzrə dəniz yollarından keçə bilər. Döyüş gəmilərinin keçidi tamamilə Türkiyə hökumətinin qərarından asılıdır.

2. Müharibə qaçınılmaz olanda:

Bu halda, ticarət gəmiçiliyi ilə bağlı müddəalara da əməl edilir, lakin gəmilərin gün ərzində boğazlara daxil olması və Türkiyə hakimiyyətinin göstərdiyi marşrutlar üzrə keçməsi şərti ilə.

Döyüş gəmiləri ilə bağlı qərarı ölkə hökuməti verir. Beləliklə, Türkiyə münaqişədə fəal iştirak etməsə belə, hərbi gəmilərin keçidini qadağan edə bilər.

Konvensiyanın digər mühüm məqamı Türkiyəyə Qara dənizdə gəmilərin məcburi tonnajı ilə bağlı tənzimləməni dayandırmaq imkanı verilməsidir. Yəni müttəfiqlərin hərbi gəmiləri Türkiyə təminat verdiyi hüquqdan yararlanarsa, Qara dənizə girə bilər.

### Ukraynanın tələbi həyata keçirilsə, bu, Türkiyə üçün də fəsadlara səbəb ola bilər

Beləliklə, bəndlər və müddəalar analiz edilərkən belə nəticəyə gəlmək olar ki, Türkiyənin Montryö Konvensiyası çərçivəsində göstərilən prinsiplər çərçivəsində boğazları bağlamaq imkanı var. Lakin belə olan halda siyasi məhdudiyyətləri də unutmaq olmaz.

Birincisi, Türkiyə Konvensiyaya kifayət qədər həssas yanaşır və onun tələb etdiyi qaydalarına riayət edir. Çünki Ankara da yaxşı bilir ki, bu saziş Qara dənizdə təhlükəsizlik və sabitliyin mühüm komponentidir. Əgər Ankara Kiyevə ”hə” deyərdə o zaman digərləri üçün də eyni addımı armalı olacaq. Daha dəqiq desək, NATO Qara dənizdə hərbi gəmilərini yerləşdirmək qərarına gələrsə, bu, mümkün olmayacaq. Yaxud, Türkiyə öz hüququndan sırf Ukrayna ilə bağlı istifadə edərsə, Rusiya buna etiraz etməsi ilə yanaşı, hətta Türkiyəni neytrallığa riayət etməməkdə ittiham edə bilər.

İkincisi, Rusiyanın Qara dənizdə yerləşdirilməsi prosesi başa çatıb. Etiraf edək ki, Rusiyanın Qara dəniz donanması Ukraynanın blokada vasitəsilə dənizə çıxışını məhdudlaşdıracaq qədər güclüdür. Bundan əlavə, Rusiyanın Xəzər donanmasının qüvvələri ilə Volqa-Don kanalı vasitəsilə Qara dəniz donanmasını gücləndirmək imkanı var.

Beləliklə, boğazların bağlanması Rusiyanı hərəkətsiz vəziyyətə gətirmək üçün əbəs vasitə olardı. Ancaq Ankaranın da siyasi iradəsi burada çox şeyi həll edir. Bu baxımdan, Türkiyə də öz növbəsində neytrallığını qorumağa çalışmağa davam edəcək. Yox, əgər NATO münaqişədə iştirak etmək qərarına gələrsə və bunu rəsmən bəyan edərsə, yəqin ki, Ukraynaya təkcə Türkiyədən deyil, həm də digər ölkələrdən balanslı dəstək göstəriləcək.

***Rövşən RƏSULOV***

# Kimlərin əməkhaqları nə qədər artdı?

**Prezident İlham Əliyevin tapşırığı əsasında reallaşdırılan yeni sosial islahat paketi çərçivəsində 2022-ci ilin əvvəlindən ölkədə əməkhaqlarında növbəti artımlar edilib. SİA xəbər verir ki, minimum aylıq əmək haqqının 250 manatdan 300 manata çatdırılması ilə əlaqədar 800 min işçinin, o cümlədən maaşları Vahid Tarif Cədvəli (VTC) üzrə müəyyən olunanların əmək haqqında orta hesabla 20 faiz artım baş verib.**

VTC üzrə işçilərdə orta aylıq əmək haqqı 387 manatdan 465 manata çatıb. Hazırda həmin cədvəlin ilk pilləsi üzrə əməkhaqqı 300 manat, ən yüksək - 19-cu pilləsi üzrə əməkhaqqı 979 manatdır. Minimum əməkhaqqı artımı üçün dövlət büdcəsindən ayrılan əlavə illik vəsait 460 mln. manat təşkil edir.



2022-ci ilin əvvəlindən 165 min müəllimin əmək haqqında da orta hesabla 20 faiz artım olub və onların əməkhaqqı orta hesabla 550 manatdan 660 manata çatdırılıb. Bu artım üçün isə ayrılan əlavə illik vəsait 273 mln. manatdır.

İslahatlar hərbi qurumlar və hüquq mühafizə orqanlarında xidmət keçən bir sıra şəxsləri də əhatə edib. İlin əvvəlindən onların aylıq vəzifə maaşlarına 20% əlavə olunur, qeyd edilən orqanların mülki işçilərinin vəzifə maaşları da 20% artırılıb. Həmin artımlara isə il ərzində əlavə olaraq 157 mln. manat sərf olunacaq. Ümumilikdə 2022-ci il üzrə əmək haqqı, pensiya və digər sosial ödənişlərin artımını nəzərdə tutan islahatlar paketi 3,4 milyon şəxsi əhatə edir. Bu artımlar üçün ayrılan illik əlavə vəsait 2,1 mlrd. manat təşkil edir.

# Prezidentin cavabı güclü və xarizmatik dövlət başçısı olduğunu bir daha göstərdi

Tarix boyu həmişə belə olub ki, sərkərdəsi güclü olan ordu qalib olub, eynilə biz bu tarixi canlı olaraq yaşadıq. Xalq və ordu birliyi bütün dünya xalqlarına bir nümunə oldu. 44 gün davam edən İkinci Vətən müharibəsi dövründə bizi qələbələrə aparan əsas faktorlardan biri möhtərəm Prezidentimizin savaş zamanı dünyanın 30-a yaxın mediasına çoxsaylı müsahibələr verdi, bir çox beynəlxalq tədbirlərdə etdiyi çıxış və bəyanatları ilə Qərb ictimai rəyində Azərbaycanın xeyrinə dönüş yarada bildi. Hətta qərəzli suallar qarşısında sözün əsl mənasında siyasi liderlik dərsi keçən Prezident Əliyev özünün hazırlıqlı siyasətçi olduğunu sübuta yetirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini konkret faktlarla ortaya qoydu, bütün dünyaya çatdırdı.



**SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri**

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 23-də Moskvada TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı maraqlı açıqlamalar verməklə yanaşı, ünvanlanan suallara qılıncdan iti olan, sağlam məntiqə əsaslanan sözün qüdrətini hazırcavablığı, məntiqli düşüncəsi ilə bildirən Prezident İlham Əliyev bütün müsahibələrində olduğu kimi bu müsahibə zamanı bir daha Ermənistana və onu silahlandıranlara növbəti xəbərdarlıq etməklə Azərbaycanın qətiyyətli mövqeyini nümayiş etdirdi.

Azərbaycan Prezidenti bildirib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakteri uzun illər boyu müttəfiqlərin münasibətlərinin bütün parametrlərinə cavab verirdi. Rusiya ilə Azərbaycan arasında 200-dən artıq sənəd imzalanıb. Dövlətlərarası münasibətlərin qurulmasından 30 il keçdikdən sonra onlar müttəfiqlik səviyyəsinə çatıb. Uzun illər boyu Rusiya ilə Azərbaycan arasında olan münasibətlər strateji tərəfdaşların münasibətləri kimi xarakterizə olunub. Münasibətlərin indiki formatı ali formatdır. Yəni, bundan yüksək format praktiki olaraq yoxdur. Azərbaycanın dövlət başçısı qeyd edib ki, imzalanmış Bəyannamə uzun illər boyu aparılmış çox ciddi işin nəticəsidir. Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrup sənədin üzərində bir ildən artıq müddətdə birgə çalışıb. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir. Rusiya və Azərbaycan tərəfindən müxtəlif istiqamətlər-ticari-iqtisadi, nəqliyyat, humanitar fəaliyyət və digər istiqamətlər üzrə qəbul edilmiş səkkiz yol xəritəsi reallaşma mərhələsindədir. Göründüyü kimi, Prezident İlham Əliyev müsahibəsi zamanı açıq şəkildə bəyan edib ki, Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrup bəyannamə layihəsinin üzərində bir ildən artıq müddətdə birgə çalışıb. İndiki halda isə Azərbaycanla Rusiyanın münasibətlərinin müttəfiqlik səviyyəsinə qalxması o deməkdir ki, bütün sferalar üzrə əməkdaşlıq yeni mərhələyə qalxır və artıq yeni imzalanan sənəd Azərbaycan-Rusiya münasibətlərinin bundan sonrakı inkişafının yol xəritəsi də hesab oluna bilər.

Qeyd edək ki, həmin görüşdə Rusiya mediasının erməni diasporuna mənsub olan əsas siması, "Russia Today" telekanalının, "Rossiya Seqodnya" və "Sputnik" agentliklərinin baş redaktoru Marqarita Simonyanın qərəzli sualları ilə bir daha ənənəvi erməni xislətini nümayiş etdirdi.

Ancaq ölkə başçımız İlham Əliyevin dəqiq, tamamilə faktlara əsaslanan fikirləri və Mehriban xanım Əliyevanın humanitar əsaslarla verdiyi cavab nəticəsində süquta uğramışdır. Məlumat üçün qeyd edim ki, Simonyan etnik ermənilərin Azərbaycana girişinə guya qadağa qoyulması ilə bağlı ölkə başçımıza qərəzli sualla müraciət etmişdi. Əvəzində ölkə başçımız bunun belə olmadığını, indiyə qədər müxtəlif tədbirlər, beynəlxalq yarışlar, konfranslar çərçivəsində etnik ermənilərin və milliyyətcə erməni olan digər ölkə vətəndaşlarının Azərbaycana gəldiyini bildirmiş, belə vətəndaşların ölkəmizə gəlməsi üçün sadəcə müəyyən qurumların öncədən xəbərdar edilməsinin vacibliyini nəzərə çatdırmışdır. Dövlətimizin başçısı bir daha vurğulayıb ki, Azərbaycanda etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Ermənistandan olan komanda Avropa Oyunları kimi idman tədbirlərində iştirak etmək üçün Bakıda olublar. Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycanda təşkil olunan müxtəlif tədbirlərdə iştirak edirlər. Bir neçə il bundan əvvəl Katalikos Qareginin səfəri olub. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabın qorunub saxlandığının şahidi olub. Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır.

Daha sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva onları Azərbaycanı və işğaldan azad edilmiş əraziləri öz gözləri ilə görmək üçün ölkəmizə dəvət etdilər. Bununla da, Marqarita Simonyan otuz il işğal altında qalan əzəli torpaqlarımızda "mədəni", "xeyirxah", "sülhsevər" erməni xalqının hansı barbarlıqlar törətdiyini öz gözləri ilə görə və həqiqətləri heç bir yalan burulğanı olmadan müşahidə edə biləcək.

Prezident İlham Əliyev görüş zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində görülən işlər haqqında da ətraflı məlumat verib. Bərpa-quruculuq işləri ilə bağlı dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Amma ərazilərin minalanması işləri xeyli ləngidir. Müharibənin başa çatmasından indiyədək minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200 nəfərdən çoxdur. Ölkəmizə təqdim olunmuş xəritələrin dəqiqliyi 25 faiz təşkil edir. Gerçək xəritələrin Azərbaycana təqdim edilməməsi beynəlxalq humanitar hüququn pozulması deməkdir.

Görüşdə növbəti diqqətçəkən anlardan biri də "Nezavisimaya qazeta"nın baş redaktoru Konstantin Remçukov tərəfindən səsləndirilən Türkiyə ilə münasibətlərin səciyyələndirilməsi ilə bağlı sual oldu. Ölkə başçımız cavabında ilk olaraq Türkiyə ilə münasibətlərin müttəfiqlik səviyyəsində olduğunu bildirdi. Əlavə olaraq, Vətən müharibəsinin ilk anlarından etibarən Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın haqq işinə verdiyi güclü siyasi dəstək və müharibədən sonra azad olunmuş torpaqlarımızda aparılan bərpa quruculuq işlərində türk şirkətlərinin oynadığı mühüm roldan bəhs edildi.

Beləliklə, döyüş meydanının qalibi olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalib oldu.Müdriklərin bir hikmətli kəlamını xatırladaq: "Ağıllı insan həqiqəti hər yerdə deyir. Müdrik isə həqiqəti zamanında və yerində söyləyir.

Bəli, ən mühümü odur ki, Azərbaycan Prezidenti həm də erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu, Ermənistanın, dünya erməniliyinin, həm də erməni lobbisinin Azərbaycana qarşı qərəzli informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

**SİYASİ RAKURS**

# Rusiya-NATO qarşıdurması reallığa çevrilir?

***Rusiya prezidentinin nüvə arsenalını xüsusi rejimə keçirilməsi ilə bağlı verdiyi əmrindən sonra məlum oldu ki, Avropa İttifaqının Xarici işlər, Siyasət və Təhlükəsizlik üzrə Ali nümayəndəsi Jozep Barrel Ukraynaya qırıcı təyyarələrin verilməsi məqsədi ilə bağlı bəyanat səsləndirdi. Yəni bu, müharibədən əvvəl Ukraynaya göndərilən dəbilqələr və ya zirehli jiletlər, Javelin tankvuranları, yaxud Stingerlər deyil. Bu, irimiqyaslı hərbi əməliyyatlarda istifadə olunmaq üçün yüksək döyüş qabiliyyəti olan döyüş təyyarələridir.***

## Ukraynaya verilmiş döyüş təyyarələri NATO bazalarından havaya qalxarsa

Digər tərəfdən, Aİ-nin ali nümayəndəsinin bəyanatından sonra belə sual yaranır ki, bəs həmin təyyarələr qarşıya qoyulmuş hərbi planları icra etməkdən ötrü haradan havaya qalxacaqlar? Yəni Ukraynanın hansı hərbi aerodromundan havalanacaqlar?



Artıq belə proqnozlar da var ki, cəbhədəki vəziyyəti sürətlə dəyişməkdən ötrü Ukraynaya veriləcək döyüş təyyarələri NATO bazalarında rənglənəcək və onlara Ukraynaya məxsusluğu ilə seçilən işarələr vurulacaq. Hətta həmin qırıcılar əlavə vaxt qazanmaq üçün birbaşa NATO bazalarından havaya qalxaraq Ukrayna ərazisində hərəkət edən Rusiya silahlı qüvvələrini hədəfə alacaq. Fakt kimi isə bu təyyarələrin Ukraynaya aid olduğu bildiriləcək. Ancaq belə yerdə ağla gələn ilk fikir budur: ruslar o qədər də axmaq deyillər ki, təyyarələrin Ukraynaya məxsus olub-olmadığını müəyyən edə bilməsinlər, ya da həmin təyyarələrin hansı hərbi aerodromlardan havaya qalxdıqlarının fərqinə varmasınlar...

## Pentaqon Rusiyaya hansı ismarıcını göndərib?

Təbii ki, belə olan vəziyyətdə Rusiya əlini-qolunu sallayaraq boş durmayacaq və qırıcıların havaya qalxdığı əraziləri müəyyənləşdirməklə hədəfə alaraq həmin nöqtələri raket və s. zərbələrinə məruz qoyacaq. Daha dəqiq desək, Ukraynaya məxsus döyüş təyyarələri ölkə ərazisindən deyil, NATO bazalarından havalanacaqsa ruslar raketlərinin yönlərini məhz həmin bazalara tərəf çevirəcəklər. Bu baxımdan, hazırda Avropa İttifaqı və NATO həmin təyyarələrin Ukraynaya necə, hansı üsullarla ötürülməsi barədə planlar üzərində işləyirlər.

O da əbəs deyil ki, ötən gün Pentaqondan Rusiyaya ismarıc göndərilib. Həmin ismarıcda bildirilir ki, amerikalıların hərbi qurumu rusların müdafiə nazirliyi ilə rabitə kanalını bərpa etmək istəyir. Necə ki, bənzər rabitə kanalı Suriyada da fəaliyyət göstərir. Məhz həmin kanal vasitəsi ilə ABŞ hərbçiləri havada və quruda patrul xidmətləri aparılarkən ruslarla əlaqələr saxlayır, bir-birlərini hədəfə çevirməmək üçün rabitə qururlar.

Bu arada onu da xatırladaq ki, artı hansı ölkələrin Ukraynaya neçə ədəd döyüş təyyarələri verəcəkləri ilə bağlı bəzi məlumatlar işıqlandırılmaqdadır. Belə ki, Bolqarıstan Ukraynaya 16 ədəd MiQ-29, 14 ədəd isə Su-25 təyyarələri verəcək. Polşa 28 ədəd MiQ-29, Slovakiya isə 12 ədəd MiQ-29 döyüş-qırıcı təyyarələrini göndərmək qərarındadırlar. Bütün bunlar isə, əslində, Rusiya-NATO qarşıdurmasının ilkin işartılarını verməyə başladıb. Əgər belə bir vəziyyət yaşanarsa Ukraynadakı müharibənin onun sərhədlərindən çıxaraq daha geniş miqyaslara doğru irəliləməsini, hətta 3-cü dünya müharibəsi ehtimalını artıra bilər.

**Rövşən RƏSULOV**

# Ermənistanda BÖHRAN: Dollar bahalaşır, rubl ucuzlaşır

Ermənistan banklarında rus rublu 3, dollar isə 494 erməni dramına satılır. SİA xəbər verir ki, bu barədə yazan rate.am saytının məlumatına görə, rublun minimal alışı 3 dram, satışı isə 5.09 dramdır. 1 ABŞ dollarının alışı 481, minimal satışı isə 489 dramdır. Dolların maksimal alışı 494 dramdır. Avro isə minimal alışda 532, maksimal satışda isə 548 dramı təşkil edir.



**Rövşən**

# Mövcud reallıqlar və faktlar



Rusiyanın Ukraynaya qarşı müharibədə məğlubiyyəti getdikcə daha aydın görünür. Bu, bir çox əlamətlərdə özünü aydın şəkildə göstərir. Məsələn, Ukrayna Silahlı Qüvvələri rus işğalçılarına məxsus bir neçə aviasiya bölməsini məhv edib, Rusiya tərəfi qısa zaman fasiləsində bir neçə Su-30SM, helikopter, Su-25, İL-76MD, bir texnika və yanacaqla dolu bir karvan itirib. Qostomel yaxınlığında Ukrayna Milli Qvardiyasının və "Alfa" xüsusi təyinatlılarının Rusiya xüsusi təyinatlılarının karvanını məğlub etdiyi barədə də məlumatlar var. Eyni zamanda, Almaniyanın Ukraynaya tank əleyhinə silahlar və "Stinger" zenit sistemləri üçün raketlər verəcəyi barədə fevralın 26-da Almaniya kansleri Olaf Şolz Twitter-də məlumat verib.

"Rusların soxulmasının artıq dönüş nöqtəsidir. Bizim vəzifəmiz Rusiya prezidenti Vladimir Putinin işğalçı ordusundan Ukraynanı bacardığımız qədər müdafiə etməkdir. Ona görə də biz Ukraynadakı dostlarımıza 1000 tank əleyhinə silah və 500 "Stinger" raketi veririk", deyə Olaf Şolz Twitter-də yazır. Bundan əlavə, Rusiyanın beynəlxalq banklararası SWIFT sistemindən ayrılması üçün hazırlıqlara başlanılıb. Bu barədə Ukraynanın xarici işlər naziri Dmitri Kuleba sosial şəbəkədə məlumat yayıb. "Biz gəmirə-gəmirə sona çatdırdıq. Bütün Ukrayna diplomatiyası işlədi. Ukrayna prezidentindən tutmuş Ukrayna səfirliyindəki attaşeyə qədər hamı çalışdı", deyə Kuleba yazıb.

Göründüyü kimi, bütün bunlar Rusiya Bankının sanksiya siyahısında müttəhimlər arasında görünməsi ilə hər şeyin əhəmiyyətli dərəcədə dəyişdiyini göstərir. Rusiya bu il istər-istəməz əhəmiyyətli iqtisadi tənəzzüllə üzləşəcək və inflyasiyanın səviyyəsini indi proqnozlaşdırmaq belə çətindir. Bütün bunlar Rusiyanın Ukraynanın suverenliyini məhv etmək və onu "rus dünyası"nın bir hissəsinə çevirmək istəyini həyata keçirməyin bədəlidir. Bununla belə, əvvəlki proqnozların əksinə olaraq, Ukraynanın ayaqda dayandığı görünür.

Bu arada onu da qeyd edək ki, yalnız Ermənistan öz simasızlığında qalır və Rusiyanın bütün dünya tərəfindən qınanılan addımının tərəfində çıxış etdiyi görünür. Çünki işğalçılıq siyasəti bu ölkənin dövlət siyasəti olub və özləri də işğalçı olmaqla ermənilər hər zaman işğalçıların yanındadırlar. Hətta Ukraynalılar tərəfindən əsir götürülən Rusiya hərbçiləri arasında erməni əsilli hərbçinin olması da bu rakursda təəccüblü görünmür. Ona görə ki, bu toplumun işğalçılıq meyllərinin olduğu artıq tarix boyu öz təsdiqini dəfələrlə tapıb və bu gün təkcə Rusiya deyil, dünyanın ən sonuncu ölkəsi belə işğala başlamış olsa orada ermənilərin iştirak edəcəyinə zərrə qədər şübhə edən tapılmaz.

Ermənistan Avropa Şurasında yeganə ölkə oldu ki, Ukraynanı işğal etdiyinə görə Rusiyanın təşkilatdan çıxarılması qərarının əleyhinə səs verən Rusiya nümayəndə heyətinə qoşuldu. Bunu bütün dünya unutmamalıdır. Ələlxüsus, Ermənistanı müdafiə edən ölkələr, beynəlxalq təşkilatlar yaddan çıxarmamalıdırlar ki, Ermənistan işğalçının yanındadır. Unutmamalıdırlar ki, Ermənistan deyilən bir ölkə haqqın tərəfində, suverenliyini müdafiə etməyə, işğalın qarşısını almağa çalışan ölkənin yanında deyil. Bütün bunları, dünya öl kələrinin bu gün gördükləri reallıqları heç kim unutmamalıdır. Ələlxüsus bunu təkcə bu gün yox, gələcəkdə də yaddan çıxarmamalıdırlar. Bilməlidirlər ki, Ermənistan üçün ədalət, haqq anlayışı da, suverenlik kimi ali məqamlar da, beynəlxalq hüquq da, normalar da yalnız işğal sözünün belə altında qalır, ikinci, daha doğrusu sonuncu plana düşür.

İndi bütün dünya gördü və şahidi oldu ki, Azərbaycan təkcə özünə aid olanda deyil, hansı ölkə olur-olsun, hər zaman haqqın, ədalətin, beynəlxalq hüququn tərəfindədir. Ermənistandan fərqli olaraq, Azərbaycan doğrunun tərəfində, haqlının yanındadır və yalnız ədaləti, haqqı, hüququ üstün tutur. Bunu görmək istəməyənlər belə Azərbaycanın hansı mövqedə olduğunun şahidi oldular və bundan sonra bunu etiraf etməkdən başqa çarələri qala bilməz. Əslində, Ermənistanın mövqeyi onu müdafiə etməyə qalxanlar üçün bir dərs oldu və etiraf etməsələr belə başa düşdülər ki, hər hansı biri gələcəkdə Ukrayna kimi eyni vəziyyətdə qalsa Ermənistan haqqın tərəfində olmayacaq. Dərk etdilər ki, Ermənistan üçün suverenliyin qorunub saxlanılması, işğaldan müdafiə olunmaq, ədalətli, haqlı mövqe, beynəlxalq hüquq kimi ali dəyərlər mövcud deyil, əksinə, işğalçı ilə bərabər olmaq, işğalçının yanında olmaq, işğalçı olmaq onların ən böyük amallarıdır. Bir sözlə, bütün dünya ermənilərin kimliyini, Ermənistanın necə bir dövlət olduğunu bir daha gördü.

Uzun illər Azərbaycan həqiqətin, tarixi ədalətin danışıqlar yolu, sülh yolu ilə bərpası üçün çalışdı və Ermənistan tərəfinin etinasızlığı, hətta saymazlığı səbəbindən, Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin rəhbərliyi, uzaqgörənliyi, qətiyyəti, liderliyi ilə, xalqımızın birliyi və həmrəyliyi ilə, eləcə də ordumuzun şücaəti ilə sonda hərbi güclə buna nail oldu. Ermənistanın uydurduğu miflərin hamısı darmadağın edildi və tarixi ədalət bərpa olundu, işğal altında qalan torpaqlarımız işğaldan azad edildi, geri qaytarıldı. Bu haqlı mübarizədə dünyanın bir çox ölkələri Azərbaycanın tərəfində olsalar da, bəzi ermənipərəst ölkələr, beynəlxalq qurumlar ədaləti danmağa, Ermənistanın mövqeyini müdafiə etməyə çalışdı, lakin onların bu niyyətləri də nəticə vermədi. Məsələ burasındadır ki, müharibə tarixi ədalətin bərpası ilə başa çatdıqdan, reallıqlar ortaya çıxdıqdan bir müddət sonra, daha doğrusu, son hadisələr zamanı da erməni simasızlığı, haqsızlığı, yalanı, riyakarlığı, işğalçılıq meyilləri, ümumilikdə kimliyi ortaya çıxdı. Ortaya çıxdı ki, erməni toplumu haqlı olmayıb və bu gün də haqqın tərəfində olmaq istəmir. Bax əsl reallıq, mövcud reallıq, danılmaq fakt budur. Bu reallığı, bu faktı isə görməmək mümkün deyil.

Əslində, ermənilər özləri də dərk etməlidirlər ki, mümkün olan hər şeyi artıq itiriblər. Demokratik ölkə kimi imic yaratmaq arzuları da puç olub ermənilərin, üstəlik yalanları da üzə çıxıb, hətta simasızlıqları belə ortadadır. Ermənistan cəmiyyəti faciə ilə üzləşdiyinin fərqində olmalıdır. Fərqində olmalıdır ki, Ermənistan bir ölkə olaraq olan-qalanını da itirib və bundan sonra riyakarlıqları da, yalanları da işləməyəcək. Artıq bütün dünya Ermənistanı Cənubi Qafqazda bir riyakar dövlət kimi tanıyır, tanımayanlar da tanımalıdırlar, çünki mövcud reallıqlar və faktlar bunu tələb edir.

***İnam Hacıyev***

# Yenə "Qıdı kirvə" olacaqmı?



İLHAM

Yazılı və şifahi ədəbiyyatımız da belə bir məsləhət - aforizm yer alır ki, "heç zaman milli faciələri unutma, tarixi dərslərdən nəticə çıxar". Müsbət hal ondan ibarətdir ki, xalqımız ulularımızdan bizə miras qalan tövsiyələrə, məsləhətlərə əməl etməyə çalışır. Xüsusilə də, erməni faşist xislətli toplumunun tarixin müxtəlif dövrlərində azərbaycanlıların və türklərin başına gətirdikləri müsibətləri, fəlakət və soyqırımları unutmaqdan uzaqdır. Məhz "unutsaq, unudularıq" məsləhətinə əməl etdiyindəndir ki, xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi dönəmi ilə işğal altında olan torpaqlarımızı azad edə bildi. Artıq azadlığına qovuşan Qarabağda geniş quruculuq-abadlıq işləri həyata keçirilməkdədir. Yaxın vaxtlarda insanlar öz doğma yurdlarına qayıdacaqlar. Bu, faktdır ki, insanların qaldığı yurd həsrəti onları heç zaman tərk etmir. Əhalinin beynində həmişə bir inam işığı yanır: Biz bütövlükdə o yurdlara dönəcəyik. Budur, artıq zaman yetişib və insanlarımız 30 il həsrət qaldığı yurdlarına qayıtmağa hazırlaşır. O yurdlarda normal həyat bərpa olunub, insanlar yenidən yaşamaqda davam edəcəklər, ancaq ermənilərin insanlığa yönəlik əməlləri heç zaman unudulmayacaq. Ümumiyyətlə, tarixi faktlara və reallıqlara əsaslanaraq qeyd etmək olar ki, nəinki azərbaycanlılar, türk qardaşlarımız erməniləri vəhşi və barbar toplum kimi görür və qəbul edir, eləcə də əksər dünya xalqları da erməniləri vəhşi, mədəni dəyərlərdən və insanlıqdan uzaq olan toplum olaraq tanıyırlar. Bu barədə amerikalı tarixçi Con Uniston əsərlərinin birində ermənilər haqqında yazır: "Bura gələn ilk ermənilər fırıldaqçı, macəra axtaran olmuşlar. Onlar avantürist olmasaydılar, digər ölkələrdən ərazi qoparmaq xəyalında olub, "böyük hayastan" yaratmaq fikrinə düşməzdilər".

Amerikalı tarixçinin də qeyd etdiyi kimi, harada erməni varsa, orda bəla, fəlakət və qətliamlar var. Təəssüf ki, bəzi aparıcı imperialist dövlətlər ermənilərin yaramaz xislətinə bələd olduqlarından onları özlərinin yaxınlığından uzaqlaşdırmaq üçün Azərbaycan ərazilərinə köçürmüşlər. Xüsusilə də, Rusiya imperiyası Cənubi Qafqazda qüvvətlənmək və özünün gələcək işğalçılıq planlarını reallaşdırmaqdan ötəri imzalanmış "Türkmənçay" və "Ədirnə" müqaviləsinin şərtlərinə görə erməniləri tez bir vaxtda İran və Osmanlı imperiyası ərazisindən bütöv şəkildə Azərbaycan ərazisinə köçürmüşdür. Rusiya və İran arasında 1828-ci il 20 martda imzalanmış "Türkmənçay" müqaviləsinin 15-ci maddəsinə görə Rus çarizmin təkidi ilə İran ərazisində yaşayan ermənilər tam şəkildə Azərbaycan ərazisinə köçürülməsi rəsmiləşdirilmişdir.

1829-cu il sentyabrın 2-də Osmanlı ilə Rusiya arasında imzalanmış "Ədirnə" müqaviləsinin 13-cü maddəsinə görə Osmanlı torpaqlarında yaşayan ermənilərin hamılıqla Azərbaycan torpaqlarına köçürülməsi təmin edilmişdir. Ermənilərin bu ərazinin yerli əhalisi deyil, gəlmə olduqlarını başqa xristian qaynaqları ilə yanaşı erməni mənbələri də sübut edir. "Türkmənçay" müqaviləsinin təsdiq edilməsinin ertəsi günü Rus çarı Nikolay "Erməni vilayəti" yaradılması barədə fərman verdi. 1827-ci ilin mayında Rus generalı Paskeviç Xüsusi tələbnamə əsasında ermənilər içində nüfuza malik olan polkovnik Lazaryevi (Qararos Lazaryan) öz sərəncamına alınması ilə köçürülmənin hazırlıq işlərinə başlandı. O, 1827-ci il oktyabrın 19-da Təbrizə komendant təyin edildi. Rus ordularının Təbrizə hücumu zamanı (13 oktyabr) Lazarevin çağırışından riqqətə gələn ermənilər xəyanət edərək Təbrizin darvazalarını rus ordularının üzünə açdılar. Beləliklə, işğalın baş tutmasına yardımçı oldular. Bu xəyanətkar toplum bu gün də ənənəsini davam etdirməkdədir. Bəzən belə təkliflər irəli sürülür ki, bəşəriyyətin rahat nəfəs alması üçün ermənilərin mövcudluğuna son qoymaq lazımdır. Təbii ki, indiki müasir dövrdə bu təklifi reallaşdırmaq bir qədər çətindir. Çünki ermənilərin fransızlar, ruslar, amerikanlılar kimi dəstəkçiləri, himayədarları var. Məhz bu himayədarlar ermənilərin terrorçu cani kimi at oynatmalarına imkanlar yaradırlar. Bu baxımdan, təhlükəli erməni terrorçularından qorunmaq üçün bizlər ehtiyatlı olmalıyıq. Məsəl var deyərlər, "qurdla dostluq et, amma çomağını yerə qoyma". Bizlər ermənilərlə dost olmaqdan çox-çox uzaq olsaq da, işğaldan azad edilmiş ərazilərdə ara-sıra onlara rast gələcəyik. Bu halda əlimizdə "Bayraktar" və ya avtomat olmasa da, ən azı başı toppuzlu çomağı hazır tutmalıyıq. Hətərən-pətərən edərsə, həmin ermənilərin başlarını mütləq əzməliyik. Düzdür, bəzi ağzıgöyçəklər meydana çıxıb deyirlər ki, yenidən ermənilərlə münasibət qurmalı və vətəndaşlarımız olanlarla əlaqələr yaratmalıyıq. Deyən lazımdır, bəlkə yenidən "kirvə" olaq. Yenə də "Qıdı kirvə"lər qismində ermənilər məclislərimizdə peyda olub, çörəyimizi yesin, sonra da altdan-altdan koçaryanların, sarkisyanların sifarişlərini yerinə yetirmək üçün fəaliyyət göstərsinlər. Deyirəm, belə olsa, ulularımızın "tarixi dərslərdən nəticə çıxarın" məsləhətlərini qulaqardına vurmuş olarıq.



# "CityNet" yeni sərfəli tarifini təqdim edir

*Artıq İnternet, TV və İP telefoniya xətti xidmətlərini vahid paket şəklində əldə etmək mümkün oldu!*




Abunəçilərə təqdim etdiyi yüksək sürətli internet və keyfiyyətli IPTV xidməti ilə daima fərqlənən "CityNet" internet provayderi bu dəfə də yeni və daha sərfəli tariflə müştərilərini sevindirir. Yeni tarifə əsasən, "CityNet"in müştəriləri artıq İnternet, TV və İP telefoniya xətti xidmətlərini vahid paketdə əlverişli şərtlərlə əldə edə biləcəklər. Artıq 30 mbit/s internet, 200 TV kanal və İP telefoniya xətti xidməti sadəcə 25 AZN-dən başlayan qiymətlə təqdim olunur. Bununla da abunəçilərin daima rahatlığını düşünən "CityNet" İnternet+TV+İP telefoniya xətti xidmətini vahid paketdə təqdim edərək özəl sektorda daha bir yeniliyə imza atır.

Abunəçilər bu üç xidməti daha sərfəli qiymətə əldə etməklə birlikdə, bu xidmətlərə görə aylıq abunə haqqını bir hesabdan daha rahat idarə etmək üstünlüyünü də əldə edirlər. Qeyd edək ki, İnternet+TV+İP telefoniya xətti xidmətinə qoşulan abunəçilərə İnternet ruter və TV Box abunəlik dövrü ərzində istifadəyə pulsuz verilir və bu kampaniya məhdud müddətdə davam edəcəkdir. "CityNet" Bakı, Sumqayıt və Xırdalan şəhərlərində FTTB (Fiber to the Building - Binaya qədər fiber-optik) texnologiyası əsasında yüksək sürətli sabit internet və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidməti göstərir.

Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir. Xidmətin hər hansı ünvanda mövcudluğunu şirkətin veb saytından da yoxlamaq mümkündür. Qoşulma şərtləri, yeni və mövcud tariflər, kampaniyalar, həmçinin texniki dəstək üçün *1177 və (012) 5377777 nömrələri ilə əlaqə saxlamaq kifayət edir. "CityNet" xidmətlərinə qoşulmaq üçün sadəcə zəng mərkəzinə zəng edib sifariş vermək kifayətdir. Şirkət haqqında daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytından əldə etmək olar.

# Ərzaq təhlükəsizliyi:
# Potensial və perspektivlər

**Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun inkişafı vacibdir. Xüsusilə də, kənd təsərrüfatının ərzaq yönümlü perspektivli sahələrinin inkişafının ümumi daxili məhsulda və dövlət büdcəsinin gəlirlərində mühüm rol oynaya biləcəyi vurğulanır.**

Aqrar sektorda əsas vacib sahə, ilk növbədə, ərzaq istehsalı ilə bağlıdır. Xüsusən də, taxılçılıq, heyvandarlıq, meyvə-tərəvəz və s. kənd təsərrüfatı sahələrinə daha böyük dövlət dəstəyinin göstərilməsi vacibdir. Bu, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Üstəlik, bu sahədən yaxşı gəlir də əldə etmək olar.



Hazırda ölkəmizin əsas tələbat məhsullarına olan ehtiyacının təxminən yarısı idxal hesabına ödənilir ki, bu da riskli göstəricidir. Qarşıdan qlobal quraqlıq, aclıq və qıtlıq dövrü gəlir, dünya iqtisadi mərkəzləri bu haqda həyəcan təbili çalır. Elə son 1 ildə quraqlıq səbəbi ilə qlobal taxıl istehsalının azalması nəticəsində taxılın qiymətinin xeyli bahalaşması və bunun da bütün ölkələrdə, o cümlədən Azərbaycanda unun və çörəyin bahalaşmasına təsir etdiyi faktdır. Həm də dünyada təkcə un və taxıl bahalaşmır, əksər aqrar məhsullarda bahalaşma var. Bu faktlar bir daha aqrar sektorun necə vacib olduğunu və onun sürətli inkişafı üçün dövlət dəstəyinin daha da artırılmasına çağırır.

Son illərdə dövlətin bu sahəyə böyük investisiyalar qoyduğu, böyük həcmdə subsidiyalar, kreditlər ayırdığı, müxtəlif dövlət proqramları vasitəsilə güzəştlər tətbiq etdiyi müşahidə olunur. Lakin hələlik, əldə olunan nəticəni qənaətbəxş adlandırmaq olmaz. Faktiki olaraq, əhalinin ərzağa olan tələbatının təxminən yarısı idxal hesabına ödənilir.

Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma mümkün olur. Belə ölkələrdə əsas tələbat mallarının çox böyük hissəsi ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, Rusiya, ABŞ və Hindistan da, həmçinin, əksər Avropa ölkələrində dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun bazar qiymətinə alınacağı haqda qabaqcadan müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və antiinhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə ərzaq qıtlığı və bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən məsələyə kompleks yanaşma ilə strateji aqrar proqramlar hazırlanıb yerinə yetirsə daha məqsədəuyğun olardı. Nazirlik və Su-Melorasiya su mənbələrinin səmərəli istifadəsi, su ehtiyatlarının artırılması, şoran torpaqların yaralı hala gətirilməsi kimi tədbirləri həyata keçirməklə aqrar sektorun inkişafına böyük töhfə verə bilərlər.

Qəribəsi odur ki, ölkə özünü meyvə-tərəvəzlə artıqlaması ilə təmin edə biləcək gücdədir, lakin bazarlar bu məhsulların xarici analoqları- genetik modifikasiya olunmuş məhsullarla doldurulub. Belə məhsullar yerli məhsullardan xeyli ucuz satılır. Yerli meyvə-tərəvəz bazarlarda baha satılsa da, bundan kəndli yox, alverçilər qazanır.

Kəndli məhsulunu min bir əziyyətlə əkib-biçəndən sonra onu ucuz qiymətə alverçilərə verməyə məcbur olur. Çünki hərdən təşkil olunan və az sayda fermerin iştirak etdiyi yarmarkaları nəzərə almasaq, onların öz məhsulunu sərbəst satması üçün lazımi şərait yaradılmayıb. Bazarlar isə alverçilər tərəfindən zəbt olunub və məhsul istehsal edən kəndlilər oraya giriş imkanları yoxdur. Bu səbəbdən də, hər hansı bir məhsulu kəndlidən sahədə 20 qəpiyə alan möhtəkirlər onu bazaar dükanda ən azı 1 manata satırlar.













Belədə, iki tərəf uduzur- istehsalçılar və istehlakçılar. Bir tərəf də udur ki, bunlar da dəllallar, yəni möhtəkirlərdir. Bu prosesdən qazanan daha bir tərəf isə xaricdən ərzaq idxal edənlərdir.

Ona görə də təklif edirik ki, KTN tərəfindən ölkənin bütün şəhərlərində daimi fəlaiyyət göstərən və yalnız öz məhsulunu satan kəndlilərin buraxıldığı yarmarkalar təşkil edilsin. Bakı şəhərində azı 5-6, Gəncə və Suymqayıt kimi iri şəhərlərdə 2, digər şəhərlərdə 1 daimi yarmarka təşkil edilsə, rayonlardan öz nəhsulunu satmağa gətirənlər pulsuz olara qoraya buraxılsa, o zaman ərzaq bazarında ucuzluq yaranacaq. Öz məhsulunu rahat, maneəsiz sata bilmiş və gəlir əldə etmiş təsərrüfat sahibləri növbəti illərdə daha çox məhsul istehsal etməyə çalışacaqlar və nəticədə ölkə bazarında ucuzluq və bolluq yaranacaq.



Bununla paralel olaraq, aqrar sektorda suvarma, gübrələmə, növbəli əkin sistemi, aqrotexniki qulluq, kənd təsərrüfatı texnikaları ilə təchizat işləri də qaydasına salınsa böyük nailiyyətlər əldə etmək olar.

Kənd təsərrüfatı məhsulları həm də yüngül və yeyinti sənayesi deməkdir. Bölgələrdə çox sayda kiçik və orta emal müəssisələri yaradılsa biz məhsulumuzu xaricə xammal kimi ucuz satmarıq, hazır məhsul kimi daha baha sata bilərik və buradan həm istehsalçılar, həm də dövlət xeyli gəlir əldə edə bilər. Beləliklə, nəhəng aqrar-sənaye zənciri formalaşa bilər ki, ölkəmiz nəinki özünü əsas tələbat məhsulları ilə təmin edə bilər, hətta xeyli həcmdə hazır məhsul ixrac edə bilər.

Dövlət başçısının aqrar sektorun inkişaf etdirilməsi ilə bağlı hökumətin üzərinə qoyduğu vəzifələr düzgün yerinə yetirilsə, həm neftdən sonrakı dövr üçün böyük və gəlirli istehsal sahələri yaradılmış olar, həm də əhalimiz xaricdən gətirilən mənşəyi dəqiq aydın olmayan keyfiyyətsiz ərzaq məhsullarından azad olub, öz torpağımızın təbii və təmiz məhsulu ilə qidalanmış olar. Beləliklə, ərzaq təhlükəsizliyimiz tam təmin olunmuş olar.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Uşaqlarda qəbzliyin səbəbləri nədir

**PEDİATR AÇIQLADI**

Qəbzlik, digər adı ilə konstipasiya, bağırsaq hərəkətlərinin yavaş olması səbəbi ilə həftədə 3 və ya daha az sayıda böyük bayıra çıxma vəziyyətidir. Ən sıx 2 yaş civarında görülür. 95% halda funksionaldır, altında bir səbəb yatmır və ailə anamnezi müsbətdir. Qəbzlik bağırsaqların tam boşalmaması vəziyyəti olub, ağrı və köp kimi əlavə təsirlər ilə birgə görülür. Bəzən obstruktiv tipdə, yəni şiş, polip və sair patoloji vəziyyətlərdə bağırsaq tıxanması, yaxud bağırsaq hərəkətlərində yavaşlanmaya bağlı ortaya çıxır". Bu sözləri SİA-ya açıqlamasında mütəxəssis pediatr Yüksel Hüseynli deyib.

Onun sözlərinə görə, həyat tərzi və qidalanma şəkli də səbəb olan faktorlardandır:

"Uzun müddətli qəbzliyin altında ciddi sağlamlıq problemləri yatır. Qəbzliklə birgə qarın ağrısı, çəki itkisi, bağırsaqdan qan gəlməsi kimi əlamətlər varsa, kolonoskopiya və laborator testlər ilə araşdırılmalıdır.

Qəbzlik əlamətləri:

*Nəcis kütləsinin sərt olması

*Çox az olması

*Sıxlığının az olması

Səbəblər:

*Uşaqlara ana südü verilməməsi və ya az verilməsi (normalda uşaq ilk 6 ay, sadəcə, ana südü olmaqla, 2 il ana südü ilə qidalanmalıdır)



*Ana südü əvəzi süni qidalar, inək südü verilməsi, inək südünün çox verilməsi

*Qatı qidalarla qidalanmaq

*Anadangəlmə bağırsaq anomaliyaları kimi, bağırsağı innervasiya edən sinirlərdə anomaliyalar

*Bağırsaq peristaltikasını təmin edən əzələlərdə çatışmazlıq

*Az su içmək

*Hormonal xəstəliklər

*Oyun yaşlı uşaqlarda tualet ehtiyacını ertələmək

*Körpə uşaqlarda süni qidaya və ya əlavə qidaya keçmə

*Ana südü ilə qidalanan uşaqlarda, süni qida ilə qidalanan uşaqlara nəzərən daha az qəbzlik olur. Süni qidalanmada olan uşaqlar 3-4 aya qədər bağırsaq yerkinsizliyi səbəbi ilə də köp və qəbzliyə daha çox meyilli olurlar.

*Pampersdən ayrılma dövründə uşaqlara edilən psixoloji təsir, məcburetmə, düzgün tualet vərdişinin aşılanmaması kimi hallar səbəb olur.

Hər uşağın bağırsaqlarının funkiyası və nəcis ifrazı tezliyi fərqlidir. Qidalanma və fiziki aktivlik vərdişləri təmin edildikdən sonra da qəbzlik keçmirsə mütləq əlavə müayinələr edilməlidir.

Qəbzliyə bəzi qidaların səbəb olduğu düşünülür:

*Banan

*Makaron

*Düyü

*Həddən artıq inək südü içmək

* "Fast-food" qidalar

Qəbzlik necə keçər?

*Şəkərli qidalardan uzaq durulmalıdır. Ümimiyyətlə 1 yaşa qədər uşaqlara duz, şəkər və bal olmaz. Təəssüf ki, bizim ölkəmizə xas olan uşağa "şirin çay" vermək vərdişi uşaqlarda iştahanın azalmasına, sağlam qidalar əvəzinə artıq şəkər yükünə məruz qalaraq erkən yaşlarda şəkərli diabetin əmələ gəlməsinə, eyni zamanda sağlam qidalardan imtina etməsinə səbəb olur. Şəkərli mühit ağız boşluğunda və həzm traktında zərərli mikroorqanizmaların sayınln artmağına, iştahsızlıq yaradır. Sağlam vitaminli qidalar əvəzinə, "fast-food", şokolad kimi qidalar uşaqlarda, qastrit, mədəbağırsaq xorası, dispepsiya, qəbzlik kimi ciddi problemlərə səbəb olur. Şəkər gördüyümüz kimi təkcə birçox xəstəliyin təməlində dayanır

*Digər məsləhət görülən qidalanma şəkli uşağa çoxlu lifli qidaların, meyvə, tərəvəzin verilməsidir ki, bu da bağırsaq hərəkətlərinin artmasına kömək edir.

*Uşaqlar mütləq su içməlidir(çay ,meyvə şirəsi,şirin çay yox).

*Kofelər, qazlı içkilər, qablaşdırılmış məhsullar və meyvə şirələrindən istifadə edilməməlidir.

*Bağırsaq mikroflorası düzəltmək üçün ev üsulu qatıq, kefir, ayran verilməlidir.

*Quru meyvələr və onlardan hazırlanmış qidalar tükətilməlidir.

*Hərəkətsiz uşaqların evdə, bağçada, məktəbdə yaşıdları ilə aktiv oyunlar oynamasına, evdə müntəzəm idman məşğələləri ilə məşğul olmağına şərait yaradılmalıdır.

Ümimiləşdirsək, qəbzlik çox etiologiyalı bir problemdir və vaxtında həkimə müraciət edilməlidir. Çalışın sağlam olun, sağlam qidalanın və gələcəyimiz olan uşaqlara qarşı da bu mövzuda daha həssas olun".

*Ayşən Vəli*

# Messi tənqidlərdən cana doyub...



**PSJ-nin hücumçusu Lionel Messi Fransa mətbuatının tənqidlərindən narazıdır. Qol.az "Le Parisien"ə istinadən xəbər verir ki, son aylarda məşhur fransız nəşrləri müntəzəm olaraq argentinalı oyunçuya matçlardakı oyuna görə aşağı qiymətlər qoyublar.**

**34 yaşlı futbolçunun reytinqləri hətta Paris təmsilçisinin paltardəyişmə otağında da müzakirə olunmağa başlayıb. Messi bir sıra klub rəhbərlərinə medianın bu münasibətinin onun üçün gözlənilməz olduğunu açıqlayıb.**

## Sosial şəbəkələrdə dələduzluq edənlərə XƏBƏRDARLIQ OLUNDU!

"Daxili işlər orqanlarına (DİO) vətəndaşlar tərəfindən daxil olan müraciətlərlə bağlı əməliyyat-axtarış, əməliyyat-istintaq, əməliyyat-texniki tədbirlər həyata keçirilməklə qanunvericiliyin tələblərinə uyğun olaraq təmin edilir". Bu sözləri SİA-ya açıqlamasında Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev deyib. Onun sözlərinə görə, sosial şəbəkələrdə özündə qanun pozuntusunu əks etdirən paylaşımlarla bağlı DİO tərəfindən əməliyyat-texniki tədbirlər həyata keçirilir və bu neqativ əmələ əl atan şəxslər qısa zaman ərzində müəyyən olunaraq məsuliyyətə cəlb olunur: "Biz dəfələrlə vətəndaşlarımıza müraciət edərək bildirmişik ki, sosial şəbəkələrdə şəxslərinə aid materiallar paylaşan zaman diqqətli olsunlar.

Nəzərə alsınlar ki, onların şəxsi məlumatları digər şəxslər tərəfindən neqativ əməllərdə istifadə oluna bilər. Tanımadığı insanlara şəxsi məlumatları həmçinin bank kartlarının şifrəsi, CVV nömrəsi, şəxsiyyət vəsiqəsinin seriyası, FİN kodu və s. verməsinlər. Belə hallarla rastlaşan vətəndaşlarımız bu barədə DİN-nin 102 Xidməti-Zəng Mərkəzinə həmçinin DİN-nin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat verə bilərlər".

*Arzu Qurbanzadə*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600